Üç əsrin qəzeti

www.kaspi.az

KASPİ

20 yanvar 2016 011 (3544) Qəzetin əsası 1881-ci ildə qoyulmuşdur Qiyməti - 40 qəpik

**20 Yanvar - Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi**





# Yeni iqtisadi siyasətin əsas konturları

Atılan addımlar qarşıda duran bütün vəzifələrin tam icrasını və ölkənin davamlı inkişafını təmin edəcək

Səhifə 5



## Parlamentdən iqtisadi islahatlara dəstək

Bank sektoru, valyuta bazarının tənzimlənməsi ilə bağlı yeni təkliflər qəbul edildi

Səhifə 4

## 20 Yanvar hadisələrinin 26-cı ildönümü ilə bağlı sosial şəbəkələrdə aksiya keçirilir

Səhifə 2

## Özəlləşdirmə yaxşı nəticələr vəd edir

Ekspertlərin sözlərinə görə, bu proses iqtisadi cəhətdən önəmli olmaqla yanaşı, həm də çevik idarəetmə sisteminin formalaşmasına gətirib çıxaracaq

Səhifə 7



## Uşağa "pulumuz yoxdur, kasıbıq" demək olmaz

Psixoloqlar hesab edirlər ki, valideynlər iqtisadi çətinliklərini uşaqlardan uzaq tutmalıdırlar

Səhifə 9

## Sosial müavinətlər və maaşlar artırıldı

### Prezident İlham Əliyev əhalinin sosial rifahının yaxşılaşdırılmasına xidmət edən fərman və sərəncamlar imzalayıb

**Prezident İlham Əliyev Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb.**

Prezident İlham Əliyev "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" prezidentin 2008-ci il 9 sentyabr tarixli fərmanında dəyişiklik edilməsi haqqında fərman imzalayıb. Nəticədə, "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün aylıq məbləği 2016-cı il fevralın 1-dən 10 faiz artırılıb.

"Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 2008-ci il 9 sentyabr tarixli fərmanın 1-ci hissəsinin birinci-üçüncü bəndləri isə aşağıdakı redaksiyada verilib:

*I qrup əlillərə - 165 manat*
*II qrup əlillərə - 143 manat*
*III qrup əlillərə - 110 manat.*

Həmçinin "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 2008-ci il 9 sentyabr tarixli fərmanda dəyişiklik edilməsi barədə" prezidentin 2014-cü il 17 mart tarixli fərmanının 1-ci hissəsi ləğv edilib.

Prezident İlham Əliyev sosial müavinətlərin məbləğinin artırılması haqqında fərman imzalayıb. Əhalinin rifah halını yaxşılaşdırmaq və sosial müdafiəsini gücləndirmək məqsədi ilə "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" 2013-cü il 29 avqust tarixli fərmanla müəyyən edilmiş sosial müavinətlərin məbləği 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb.

Prezident İlham Əliyev kənd təsərrüfatı, meşə təsərrüfatı, meliorasiya və su təsərrüfatı, ətraf mühitin mühafizəsi, hidrometeorologiya və balıqartırma sahələrində çalışan işçilərin əmək haqlarının artırılması barədə sərəncam imzalayıb.

Sərəncama görə, dövlət büdcəsindən maliyyələşdirilən kənd təsərrüfatı, meşə təsərrüfatı, meliorasiya və su təsərrüfatı, ətraf mühitin mühafizəsi, hidrometeorologiya və balıqartırma sahələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10% artırılır.

Prezident İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında sərəncam imzalayıb. Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb.

Prezident Daxili İşlər Nazirliyi Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılması haqqında da sərəncam imzalayıb.

# "Sabitliyi pozmaq istəyənlərin qarşısı qətiyyətlə alınacaq"

## Daxili Qoşunların ötən ildəki xidməti-döyüş fəaliyyətinin yekunları müzakirə edilib



**Yanvarın 19-da Daxili İşlər Nazirliyində (DİN) Daxili Qoşunların 2015-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş naziryanı əməliyyat müşavirəsi keçirilib.**

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəni açan daxili işlər naziri, general-polkovnik Ramil Usubov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 2015-ci ildə cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, bütövlükdə ordu quruculuğu, o cümlədən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi sahəsində aparılan işlərin də geniş vüsət aldığını xatırladıb. Nazir Qoşunların maddi-texniki bazasının daha da möhkəmləndiyini, müasir silah və texnikanın alındığını, şəxsi heyətin sosial-məişət problemlərinin həlli istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Diqqətə çatdırılıb ki, hesabat dövründə qanunvericiliklə müəyyən edilmiş vəzifələrin Daxili Qoşunlar tərəfindən icrası istiqamətində bir sıra işlər görülüb. Şəxsi heyət ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlıqla mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edib, yüksək döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlıq nümayiş etdirib.

Qeyd olunub ki, görülmüş işlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən layiqincə qiymətləndirilir. Bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminini, heç bir halda arxayınlaşmamağı tələb edir.

Daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Komandan deyib ki, ötən il qarşıya qoyulan əsas tapşırıqlardan olan birinci Avropa Oyunları və atıcılıq üzrə Dünya Kuboku kimi mötəbər beynəlxalq tədbirlər zamanı Qoşunlar digər hüquq mühafizə orqanları ilə birlikdə müəyyən olunan vəzifələri peşəkarlıqla icra edib. Bakıda, Mingəçevirdə və Qəbələdə keçirilmiş beynəlxalq yarışlar, digər kütləvi tədbirlər zamanı ictimai qaydanın və ictimai təhlükəsizliyin təmini üzrə xidmətin aparılması yüksək peşəkarlıqla icra olunub. Mayda paytaxtın Binəqədi rayonunda yerləşən çoxmərtəbəli binada baş vermiş yanğınla əlaqədar Daxili Qoşunların xüsusi təyinatlıları və helikopter ekipajı fövqəladə halın fəsadlarının aradan qaldırılmasında fəal iştirak edərək axtarış tədbirləri nəticəsində köməksiz qalmış 6 nəfəri təxliyə edib.

Hesabat dövründə Qoşunlarda döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə şəxsi heyətin praktiki bacarığının artırılması, fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi, təlim-tədris bazasının inkişaf etdirilməsi döyüş təliminin başlıca vəzifələrini təşkil edib. Bununla yanaşı, polis orqanları ilə birgə qarşılıqlı əlaqənin və fəaliyyətin təkmilləşdirilməsi də təlim prosesində prioritet məsələlərdən olub.

Vurğulanıb ki, nazirliyin rəhbərliyinin tapşırığına uyğun olaraq, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, o cümlədən şəxsi heyətin Vətənə və hərbi anda sədaqət, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl edilməsi ruhunda tərbiyə olunması, onlarda xidmətin çətinliklərinə dözüm keyfiyyətlərinin formalaşdırılması istiqamətində zəruri tədbirlər görülüb. Qanunçuluğun, nizam-intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarına uyğun riayət olunması sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsində əvvəlki dövrlə müqayisədə ötən il ölüm halları 71 faiz, cinayətlərin sayı 80 faiz, kobud intizam pozuntuları 48 faiz, ümumi hadisələrin sayı 24 faiz, bədən xəsarətlərinin sayı 21 faiz azalıb.

Müşavirəyə yekun vuran daxili işlər naziri ötən hesabat ilində Daxili Qoşunların fəaliyyətini, ümumilikdə yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli istiqamətində konkret tapşırıq və tövsiyələrini verib. Ramil Usubov deyib ki, ötən il Daxili Qoşunların şəxsi heyəti asayişin qrup halında pozulması, xüsusi əməliyyatlar və fövqəladə hallar zamanı qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirib. Cari ildə respublikada dövlət əhəmiyyətli tədbirlərin, o cümlədən mötəbər idman yarışları və beynəlxalq forumların keçiriləcəyini diqqətə çatdıran nazir bu baxımdan Qoşunlarda bütün təşkilati tədbirlərin müəyyənləşdirilərək vaxtında icrasını, qüvvə və vasitələrin hər bir tədbir ərəfəsində tam hazırlıq vəziyyətinə gətirilməsini tələb edib.

General-polkovnik Ramil Usubov hərbi hissələrdə idarəçilik fəaliyyətinin, döyüş xidmətinin təşkili və aparılmasının, hərbi qulluqçuların Vətənə, dövlətə və dövlətçiliyə sədaqət ruhunda tərbiyə edilməsinin, mənəvi-psixoloji, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsinin, ekstremal hallar da daxil olmaqla, onların qanunvericiliklə müəyyən edilmiş qaydada polis əməkdaşları ilə bərabər istənilən əmr və göstərişlərin ən yüksək səviyyədə icrasına hər zaman hazır olmalarının, bu zaman şəxsi heyət tərəfindən qanunçuluğa, insan hüquq və azadlıqlarına ciddi riayət olunmasının zəruriliyini bir daha diqqətə çatdırıb.

Nazir Daxili Qoşunların şəxsi heyəti adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi əmin edib ki, hərbi qulluqçular qanunvericiliklə müəyyən olunan vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, daxili sabitliyi, əmin-amanlığı pozmaq istəyən qüvvələrin qarşısını qətiyyətlə alacaq, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklər.

# 20 Yanvar hadisələrinin 26-cı ildönümü ilə bağlı sosial şəbəkələrdə aksiya keçirilir

**1990-cı ilin 20 Yanvar hadisələrinin 26-cı ildönümü ilə bağlı UBM Group qətlə yetirilən günahsız insanların xatirəsinə ehtiram əlaməti olaraq sosial şəbəkələrdə aksiya keçirir. Layihə korporativ sosial məsuliyyət proqramı çərçivəsində, tarixi həqiqətlərin dünyaya çatdırılması məqsədi daşıyır.**

APA-nın xəbərinə görə, Facebook, Twitter, Instagram və YouTube sosial şəbəkələrində "Remember victims of 20 January", "20 Yanvar şəhidlərini unutma!" adlı səhifə yaradılıb, təbliğat kampaniyasına start verilib. Bunun üçün şirkət tərəfindən xüsusi hazırlanmış posterlər, rəsm əsərləri və video kadrlar həmin səhifədə yerləşdirilib. Bu təbliğat materialları 5 dildə - ingilis, fransız, alman, rus və Azərbaycan dillərində hazırlanıb.

Hər bir azərbaycanlı bu işdə fəal iştiraka dəvət olunub. Şərhlər, xəbərlər, bəyənmələr, paylaşmalar, qeydlər və təşviqat üçün bu linklərdən istifadə etmək tövsiyə edilib:

https://www.facebook.com/Remember-victims-of-20-January-1674115446181140/
https://www.instagram.com/remember_victims_of_20_january/
https://twitter.com/20_January_
https://www.facebook.com/Remember-victims-of-20-January-1674115446181140/
https://www.youtube.com/channel/UCwKa3w-dYd9s3XTWn0TOO3w

Qeyd olunub ki, Azərbaycanda olduğu kimi, onun sərhədlərindən kənarda da UBM Group layihələrin idarə edilməsi, kommunikasiya xidmətlərinin göstərilməsi, marketinq, dizayn, layihə menecmenti, imicin formalaşdırılması, tədbirlərin təşkili, media ilə iş, bütün növ reklamlar, merçendayzinq, veb-səhifələrin və sosial şəbəkələrin yaradılması, idarə edilməsi, monitorinqi və təhlili sahəsində uğurla fəaliyyət göstərir. Ölkədə ən böyük imkanlar bazasına malik olmaqla, UBM Group qarşıya qoyulan tapşırığın qısa müddətdə və ən yüksək səviyyədə, optimal, dəqiq və səmərəli yerinə yetirilməsini təmin edir. Bakı 2015, Birinci Avropa Oyunlarının tərəfdaşı və bir sıra xidmətlərin göstərilməsində Oyunların eksklüziv təchizatçısı olan UBM Group haqqında daha ətraflı www.ubmg.az veb səhifəsindən məlumat əldə etmək olar.



# "Ölkənin bank sektoru sabitdir"

## Elman Rüstəmov: "Neft ətrafında yaşanan situasiya yeni inkişaf mərhələsinə aparan çağırışdır və biz bunun öhdəsindən gələcəyik"

**"Manatın kursu ilə bağlı elektron saytlarda şayiələr yayılır, lakin bunların heç bir əsası yoxdur. Həmin şayiələrə görə, guya dolların məzənnəsi 2-2,5 manat olacaq. Bu söz-söhbətlər həqiqəti əks etdirmir". Bu barədə jurnalistlərə açıqlamasında Mərkəzi Bankın sədri Elman Rüstəmov bildirib. O qeyd edib ki, əlləri təmiz olmayan müəyyən möhtəkirlər valyuta kursunun qaldırılması istiqamətində çalışıblar. Lakin həyata keçirilən tədbirlər sayəsində hazırda valyuta bazarında situasiya sabitləşib.**

Bankirin sözlərinə görə, bu tədbirlər eyni zamanda bütövlükdə bazarın valyutaya olan ilkin ajiotaj tələbatının, psixoloji tələbatının ödənilməsidir: "Dünənki (srağagünkü - red.) son auksionda bizim təklif etdiyimiz valyutanın hamısı alınmadı. Dəvət etdiyimiz 35 bankdan cəmi 28 bank auksionda iştirak etmişdi. Bu onu göstərir ki, bazarda artıq sabitləşmə prosesi gedir. Lakin məzənnə üzməkdə davam edir".

E.Rüstəmov deyib ki, atılan vacib addımlardan biri də bankdan kənarda valyuta mübadiləsi aparan məntəqələrin ləğvi olub: "Həmin məntəqələr müəyyən ajiotaj yaradırdı. Bəzi möhtəkirlərin vəziyyətdən sui-istifadə etməməsi üçün ölkədə 200-dək valyutadəyişmə məntəqəsi ləğv edilib. Artıq mübadilə əməliyyatları bankların daxilində aparılır və bu amil ajiotajın aradan qalxmasına səbəb olacaq".



E.Rüstəmov bildirib ki, bütün iqtisadi proseslər sabitləşməyə xidmət etməlidir: "2015-ci ilin ilk devalvasiyasına qədər ən çox inkişaf edən bank sektoru idi. Kapitallaşma 18 faiz, 2 dəfədən çox idi. Problemli kreditlərin sayı 5 faizdən çox idi. 10-12 ildə banklar 80 milyon kredit veriblər, iqtisadiyyatı stimullaşdırıblar".

Kiçik kreditlərə gəlincə, E.Rüstəmov qeyd edib ki, bunlara addım-addım baxılır: "Bu gün hökumətin gündəliyində həddindən artıq məsələlər var. Yəqin ki, bu məsələyə qayıdılıb, müzakirə olunacaq və ictimaiyyət də məlumatlandırılacaq. Cəmiyyəti bu gün ən çox düşündürən məsələ manatın sabitliyidir. Manat valyuta deyil, dövlət simvoludur. Digər tərəfdən, çox ümumiləşdirilmiş iqtisadi məfhumdur. Bu gün Azərbaycan iqtisadiyyatını ifadə edən milli valyuta onun məzənnəsidir. Neft ətrafında yaşanan situasiya yeni inkişaf mərhələsinə aparan çağırışdır və biz bunun öhdəsindən gələcəyik".

E.Rüstəmov Azərbaycan manatının denominasiyasını həyata keçirməyə lüzum olmadığını vurğulayıb: "Sosial şəbəkələrdə yeni pul nişanlarının çap olunması ilə bağlı yayılan xəbərlər həqiqəti əks etdirmir. Bu, uydurmadır. Bildiyiniz kimi, denominasiyanı həyata keçirmək üçün milli valyutada qüsurlar olmalıdır. Bundan başqa, hiperinflyasiya olmalıdır. Hal-hazırda Azərbaycanda hiperinflyasiya müşahidə olunmur və milli valyutada qüsurlar yoxdur".

Azərbaycanda bəzi bankların birləşməsi məsələsinə aydınlıq gətirən E.Rüstəmov deyib ki, bank sektorunda konsolidasiya 5-7 banka şamil edilə bilər. Onun sözlərinə görə, Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası bu məsələ üzrə ciddi iş aparır: "Bu həssas məsələdir, çünki bu banklarda əhalinin əmanətləri yerləşib. Hazırda həll etməli olduğumuz əsas məsələ əmanətlərin sığortalanmasıdır. Bu məsələdə heç bir diskomfort yoxdur, çünki banklar birləşəndə iri olurlar. Bundan başqa, onu da diqqətə çatdırım ki, Azərbaycanda bankların konsolidasiyası prosesinə beynəlxalq maliyyə təşkilatları, eləcə də Beynəlxalq Maliyyə Korporasiyası və Avropa Yenidənqurma və İnkişaf Bankı da maraq göstərir. Bu, bankların sağlamlaşmasına gətirib çıxaracaq. Hesab edirəm ki, konsolidasiya bank sahibləri və əhalinin də maraqlarına uyğundur".

E.Rüstəmov onu da əlavə edib ki, Azərbaycan hökuməti 5 min dollara qədər olan kreditlər üzrə borcların 1 dollara görə 1,05 manat məzənnəsi ilə ödənilməsi məsələsini nəzərdən keçirir. Onun sözlərinə görə, köhnə məzənnə ilə yeni məzənnə arasındakı fərq üçün kompensasiya 250 milyon dollar təşkil edə bilər.

Milli Məclisin İqtisadi siyasət komitəsinin ötən gün keçirilən iclasında isə E.Rüstəmov deyib ki, Azərbaycanda bank sektoru sabitdir və ümumilikdə yüksək göstəricilərlə xarakterizə edilir. O bildirib ki, hazırkı mərhələdə Azərbaycan dünya iqtisadiyyatında baş verənlərlə əlaqədar yaranmış şokları neytrallaşdırmalıdır: "Zəif göstəriciləri olan bir-iki bankı çıxmaq şərtilə, kapitalın səviyyəsi və likvidlik yüksəkdir. Banklarda likvidliyin səviyyəsi təxminən 5 milyard manatdır. Hazırda Azərbaycanda kapitalın adekvatlığı 14 faiz təşkil edir ki, bu da 8 faizlik beynəlxalq normadan yuxarıdır".

E.Rüstəmov bir daha vurğulayıb ki, Mərkəzi Bank digər hökumət qurumları ilə birgə ölkədə makroiqtisadi vəziyyətin stabilləşməsi, o cümlədən, manatın məzənnəsinin dinamikasının, onun proqnozlaşdırılan kəskin üzməsinin qarşısını almaq üçün çox güclü tədbirlər görmək fikrindədir, iqtidarındadır.

**Kaspi.az**

# MDB-ni bürüyən devalvasiya

## Milli valyutalar sürətlə ucuzlaşır

**Dünyanı bürüyən böhran postsovet ölkələrindən də yan keçmir. Özü də böhran tək neft ölkələri deyil, neftdən asılı olmayan ölkələrə də təsirsiz ötüşmür. Bu ölkələrin milli valyutaları sürətlə aşağı düşür, müəssisələrin bağlanması, ardınca da işsizlər ordusu yaranır. Rusiya, Qazaxıstan, Türkmənistanın ardınca bu dəfə Qırğızıstanın milli valyutası - som ağır günlərini yaşayır. Dünən bu ölkənin valyutası devalvasiya şokunu yaşayıb. Bir dollar 75 som müəyyən edilib. Beləliklə, tenge və rublun ardınca qırğız valyutası da devalvasiyaya məruz qalıb.**

Qırğız nəşrlərinin yaydığı məlumata görə, milli valyuta yarım il ərzində 21 faiz "arıqlayıb". Ötən ilin yanvar ayından bəri inflyasiya 27 faiz təşkil edib. Narahatlıq doğuran fakt ondan ibarətdir ki, ötən dekabrın 1-dən ABŞ valyutası bir qiymətdə qalaraq dəyişməyib. Dolların kursunu saxlamaq üçün Milli Bank ehtiyatında olan bütün valyutanı bazara çıxarıb. İl başlayandan bəri Qırğızıstanın sosial şəbəkələrində Bişkekin valyuta dəyişmə məntəqələrində dollar qıtlığı barədə xəbərlər dolaşmağa başladı. Valyuta dəyişmə məntəqələrinin işçiləri bildirirlər ki, rəsmi məzənnə ilə valyuta satışı yoxdur. Lakin baha satmağa razıdırlar.

Hakimiyyət isə ajiotaj üçün əsas olmadığını iddia edir. Ümumiyyətlə, ekspertlər qırğız iqtisadiyyatının gələcəyini mürəkkəb görürlər. Gündəlikdə hazırda antiböhran proqramı, ola bilsin, büdcənin yenidən nəzərdən keçirilməsi var. Ölkənin çətin duruma düşməsində Rusiya faktoru da önəmli rol oynayır. Rusiyanın bu ölkədəki səfiri Andrey Krutko bildirir ki, "büdcə deşiyi"nin yaranmasında Rusiyanın əhəmiyyətli rolu olub. Onun sözlərinə görə, Rusiya hər dəfə Qırğızıstan büdcəsinə əhəmiyyətli dəstək verib.




Qırğızıstan büdcəsinin daha bir mənbəyi mədən sənayesidir. Bunlar kömür, metal yataqları, gips və əsas etibarilə qızıldır. Faydalı qazıntıların ixracı ilə dövlət büdcəsinin 50 faizi dolur. Bunun 80 faizini "Kumtor" yatağından çıxarılan qızıl təşkil edir. Buradan əldə olunan vəsait mütəmadi olaraq qalmaqallara səbəb olur. Bu yataqlar yerli siyasətçilərin əsas maliyyə mənbələrindən biri hesab edilir. Bundan əlavə, hakimiyyət orqanları əlavə mənbələr axtarışındadırlar. Ən böyük ümid yeri Avrasiya İqtisadi Birliyi ölkələri, Çin və Türkiyədir. Ölkənin iqtisadiyyat naziri Arzıbek Kojoşevin sözlərinə görə, türk holdinqi iri toxuculuq kompleksinin inşasına başlayıb. İki ildən sonra inşası başa çatacaq müəssisədə 2 min insanın işləyəcəyi nəzərdə tutulur. Çinin ölkədəki səfiri Çi Dayyuy ilə görüşdə isə baş nazir Temir Sariyev ikitərəfli əməkdaşlığın üç əsas perspektivini göstərib - Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu, İssık-kul gölü ətrafında dairəvi yol və Çindən ölkəyə ifrat güclü istehsal müəssisələrinin gətirilməsi.

Devalvasiya neftdən asılı olmayan başqa bir ölkə - Belarusdan da yan keçməyib. İl başlayandan bəri bu ölkənin rublu 10 faizə yaxın devalvasiyaya uğrayıb. Əhali isə milli valyutanın məzənnəsinin aşağı düşməsini gözləməyərək axırıncı vəsaitlərini dollar və avronun alınmasına sərf edib. Bu da bir sıra bankların valyuta satmaqda məhdudiyyətlər tətbiq etmələrinə səbəb olub. Hazırda bir ABŞ dolları 132 rubla çatıb. Neft ölkəsi olmayan Ukraynanın milli valyutası - qrivna isə 2015-ci ildə Avropa və MDB ölkələri arasında ən çox zəifləyən üç əsas valyutadan biri olub. Belə ki, il ərzində qrivna 48,7% devalvasiyaya uğrayıb. Son iki ildə isə Ukrayna valyutası 193,4% devalvasiya olunaraq, Avropa və MDB məkanında ən zəif performans göstərən pul vahidi olub. Ukraynadakı "ForexClub" şirkətinin aparıcı eksperti Andrey Şevçişin qeyd edib ki, 2016-cı ilin ilk yarısında da valyuta tələbatının təmin olunmasında problemlər yaranacaq və tələb əsasən xarici tərəfdaşların kreditləri hesabına ödəniləcək. İlin ikinci yarısından isə ixracın artması gözlənilir ki, bu da ölkəyə valyuta axınını artıracaq.

Qeyd edək ki, MDB məkanında il ərzində ən çox devalvasiyaya uğrayan digər valyuta Qazaxıstan pulu (98%) olub. Qazaxıstanda milli valyutanın - tengenin devalvasiyasına avqustda başlanıb. Tengenin ucuzlaşmasının əsas səbəbi neftin qiymətinin enməsi, Qazaxıstanın əsas ticarət tərəfdaşlarından biri olan Çin valyutasının ucuzlaşması və qazax mallarının rəqabət qabiliyyətinin aşağı düşməsidir. Qazaxıstanda başa düşüblər ki, bu vəziyyətdə tengeni istəsələr də, xilas edə bilməyəcəklər. Çünki səbəblərin əksəriyyəti xarici amillərlə bağlıdır və hökumət onları dəyişə bilmir. "Qazaxıstanda başa düşürlər ki, qatarın qarşısında dayanmaq olmaz" - deyə Nomura Holdings şirkətinin nümayəndəsi Timoti Gş qonşu ölkədəki vəziyyəti "Bloomberg"ə şərh edib,

Ənənəvi olaraq MDB məkanında baş verən bütün proseslərin səbəbkarı Rusiya sayılır. Artıq 1 dollar 79 rubla dəyişdirilir. İlin əvvəlindən bəri bu, rublun ən aşağı məzənnəsidir. Ən maraqlısı da odur ki, Rusiya hökuməti rublu xilas etməyə tələsmir. Prezident Vladimir Putinin köməkçisi, keçmiş iqtisadiyyat naziri Aleksey Belousov bildirib ki, ölkənin rublun məzənnəsini qorumaq üçün lazımi qədər valyuta ehtiyatı yoxdur. Hazırda mövcud olan 358 milyard dollar qızıl-valyuta ehtiyatının yalnız 300 milyard dolları valyutadır. Onun da 120 milyard dolları toxunulmaz sayılan ehtiyat fondlarına aiddir. Qalan vəsait isə ölkənin ehtiyaclarını cəmi 9 ay ödəyə bilər. Ona görə də hökumət rublu qorumaq niyyətindən əl çəkib - rubl da qazax tengesi kimi "sərbəst üzmə"yə buraxılıb.

Ətraf ölkələrdə baş verən proseslər Gürcüstana da təsir edir. Ona görə də Gürcüstan neft ölkəsi olmasa da, neftin ucuzlaşmasının bütün nəticələrini hiss edir. Belə ki, avqustun əvvəlindən başlayaraq Gürcüstanın milli valyutası - lari ABŞ dolları qarşısında ucuzlaşmağa başlayıb. Artıq dollar bahalaşaraq 2,32 lariyə çatıb.

Postsovet ölkələri ilə yanaşı, Türkiyənin milli valyutası - lirənin məzənnəsi də sürətlə aşağı düşməkdədir. Türkiyə Mərkəzi Bankının məlumatına görə, qara bazarda bir dollar 3,020 lirə səviyyəsinə yüksəlib.

**Kamran**

# Parlamentdən iqtisadi islahatlara dəstək

## Bank sektoru, valyuta bazarının tənzimlənməsi ilə bağlı yeni təkliflər qəbul edildi

**Dünən Milli Məclisin növbədənkənar iclası keçirilib. Spiker Oqtay Əsədov ölkədə mövcud olan iqtisadi vəziyyət fonunda Prezident İlham Əliyev tərəfindən tədbirlərin görüldüyünü və növbəti islahatlar istiqamətində müvafiq addımlar atıldığını bildirib. Qeyd edib ki, islahatlara başlamaq üçün dövlət başçısı tərəfindən parlamentə sənədlər göndərilib:**



"Mən bir daha əmin oldum ki, bizim iqtisadçılar arasında iqtisadiyyatı hamıdan güclü bilən dövlət başçısıdır. İslahatlara başlamaq üçün Prezident İlham Əliyev tərəfindən Milli Məclisə sənədlər göndərilib. Biz bunun zərurətini başa düşərək növbədənkənar sessiya çağırdıq".

### ƏHALİNİN VƏZİYYƏTİ YAXŞILAŞACAQ

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə** Azərbaycanda dövlət büdcəsinə yenidən baxılacağını bildirib. Qeyd edib ki, neftin qiymətinin dünya bazarında ucuzlaşması iqtisadi planlara yenidən baxmağı zəruri edir. O, bu gün Azərbaycanın kifayət qədər valyuta ehtiyatlarının olduğuna diqqət çəkib və deyib ki, bu valyuta ehtiyatlarını birdən-birə xərcləmək olmaz. Deputatın sözlərinə görə, valyuta ehtiyatları səmərəli şəkildə istifadə olunmalıdır. Z.Səmədzadə Azərbaycanda valyuta məzənnələrinin tənzimlənməsinin vacibliyinə də toxunub. Komitə sədri hesab edib ki, ölkədə yüzlərlə valyutadəyişmə məntəqəsinin olmasına ehtiyac yoxdur. Millət vəkili parlamentin növbədənkənar iclasında müzakirəyə çıxarılan qanun layihələrinin Azərbaycan iqtisadiyyatının davamlılığını artıracağını, əhalinin vəziyyətinin yaxşılaşmasına xidmət edəcəyini vurğulayıb.

### ÖLKƏ DÜŞDÜYÜ VƏZİYYƏTDƏN ÇIXA BİLƏR

**Deputat Əli Məsimli** Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Nazirlər Kabinetinin iclasında və sosial-iqtisadi məsələlərlə bağlı müşavirədə səsləndirilən təkliflərə diqqət çəkərək deyib ki, dövlət başçısı tərəfindən dilə gətirilən bu təkliflərin yarısı aidiyyəti qurumlar tərəfindən yerinə yetirilsə, ölkə düşdüyü vəziyyətdən çıxa bilər. O qeyd edib ki, Prezident İ.Əliyev hər iki iclasda 30-a qədər qiymətli təklif irəli sürüb: "Prezident İlham Əliyev həmin təkliflər içərisində sosial məsələləri bir nömrəli hesab etdi, həmçinin manata inamın qaytarılması məsələsini vurğuladı. Bu məsələlər bugünkü sənəddə əksini tapıb. Prezident İlham Əliyevin səsləndirdiyi digər məsələ struktur islahatlarıdır ki, onlar da çox əhəmiyyətlidir. Ümumilikdə səsləndirilən bu kimi təkliflərin 15-i yerinə yetirilsə, 2016-cı ildə, maksimum 2017-ci ilin 1-ci yarısında Azərbaycan iqtisadiyyatına olan qlobal təsirləri neytrallaşdırmaq və yeni iqtisadi keyfiyyətə nail olmaq mümkün olacaq. Lakin Prezidentin təklifləri yerinə yetirilməsə, bu məsələ bir neçə il uzanacaq. Burada ən mühüm məsələlərdən biri də inhisarçılığın tamamilə aradan qaldırılmasıdır".

### DÖVLƏT MÜƏSSİSƏLƏRİ ÖZƏLLƏŞDİRİLMƏLİDİR

**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri, deputat Qüdrət Həsənquliyev** iqtisadi vəziyyətlə bağlı çıxış edərkən, Türkiyə ilə, o cümlədən Avropa ölkələri ilə viza rejiminin aradan qaldırılması məsələsini diqqətə çatdırıb. Onun fikrincə, viza rejimi aradan qaldırılmalıdır ki, həmin ölkələrin vətəndaşları gəlib burada valyuta xərcləsinlər və turizmin inkişafına təkan versinlər. Q.Həsənquliyev özəlləşdirmə prosesinin çox sürətlə həyata keçirilməsinin zəruriliyinə də toxunub: "Burada ləngiməyə yol vermək olmaz. Dövlət ali təhsil müəssisələri, tibb müəssisələri və digər müəssisələr özəlləşdirilməlidir ki, dövlətin yükü azalsın. "Azərişıq", "Azəriqaz", "AZAL" kimi dövlət müəssisələrinin hamısının özəlləşdirilməsinin vaxtı çoxdan çatıb".

### AZƏRBAYCANIN GÜCÜ VƏ POTENSİALI VAR

**Parlamentin Gənclər və idman komitəsinin sədri Fuad Muradov** son zamanlar iqtisadi məsələlərlə bağlı səsləndirilən bəzi fikirlərlə razılaşmadığını dilə gətirib. Bildirib ki, bunlar əsasən Azərbaycanın gücü və ya potensialının olmaması ilə bağlı fikirlərdir. Millət vəkilinin sözlərinə görə, Prezident İlham Əliyevin son vaxtlar həyata keçirdiyi islahatlar bir daha göstərir ki, Azərbaycanın gücü və potensialı var və xalq bunu yaxşı qəbul edir.

### İSTEHLAK KREDİTLƏRİ DOLLARLA VERİLƏ BİLMƏZ

**Ana Vətən Partiyasının (AVP) sədri, deputat Fəzail Ağamalı** banklarda kreditlərin manatla, öz milli valyutamız ilə deyil, dollarla verilməsinin qəbuledilməz olduğunu, bunun birbaşa Konstitusiya pozuntusu sayıldığını söyləyib. Bildirib ki, kreditlər, xüsusilə də istehlak kreditləri dollarla verilə bilməz: "Bunu edənlər həm İnzibati Xətalar Məcəlləsi, həm də Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cəzalandırılmalıdır. Hətta, bununla bağlı İnzibati Xətalar Məcəlləsinə yeni müddəa əlavə edilməlidir".

### DÖVLƏT STRUKTURLARINDA RADİKAL İSLAHATLAR

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, millət vəkili Azay Quliyev** iqtisadi böhranın mənfi təsirlərini və risklərini minimuma endirmək üçün prezident İ.Əliyev tərəfindən son günlər çox önəmli addımlar atıldığını vurğulayıb. Bildirib ki, bunun üçün hətta, indiyədək görünməmiş radikal struktur dəyişikliklərinə gedilir, böhranın təsirlərini azaltmaq üçün ciddi hüquqi baza yaradılır. O, qiymətlərin tənzimlənməsi və süni bahalaşmanın qarşısının alınması üçün də qəti tədbirlər görüldüyünü qeyd edib: "İslahatlara mane olan rüşvət, korrupsiya, monopoliya, sabotaj hallarının təcili surətdə aradan götürülməsi üçün hüquq-mühafizə orqanlarının səlahiyyətlərini artırılır. Maliyyə-iqtisadi və ərzaq kimi ən vacib sahələrdə təxirəsalınmaz əməli addımlar atılır. Struktur islahatları çərçivəsində ötən il bir neçə dövlət qurumu ləğv edildi. Ölkədə azad sahibkarlığın inkişafına mane olan yoxlamalar dayandırıldı. Lisenziyaların verilməsi qaydaları sadələşdirildi, lisenziya verilən fəaliyyət növlərinin sayı azaldıldı. Gömrükdə şəffaflığın artırılması, inhisarçılığın aradan qaldırılmasını təmin edən qərarlar qəbul olundu. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə daha da sərt şəkil aldı və bəzi səlahiyyət sahibləri öz qanunsuz əməllərinə görə məsuliyyətə cəlb olundu. Süni qiymət artıranlara qarşı sərt mübarizə mexanizmlərindən istifadə olunaraq daxili bazar nəzarətdə saxlanıldı. Çörəyin, unun, ərzaq məhsullarının qiyməti aşağı salındı".

### PREZİDENTİN ÇIXIŞI XALQDA İNAM YARADIB

**Böyük Quruluş Partiyasının (BQP) sədri, deputat Fazil Mustafa** Prezidentin yanvarın 18-dəki çıxışından sonra xalqda inam yarandığını vurğulayıb. Bildirib ki, bu çıxışa qədər xalqda gələcəyə inam yox idi: "Bununla belə, düşünürəm ki, böhrandan çıxış prosesini bu iqtisadi blok həll edə bilməyəcək. Kiminsə şəxsiyyətinə söz demək kimi fikrim yoxdur. Bu iqtisadi blokda təmsil olunan hər kəs iqtisadiyyatın inkişafında müəyyən rol oynayıb. Amma problemlərin çıxış yolu iqtisadi blokun yenilənməsindədir. İlk növbədə, sərt inzibati tədbirlər görülməlidir. Bütün qapıları xarici investisiya layihələrinə açmaq lazımdır. Bankların etibarlılığı təmin olunmalıdır. İdxal-ixrac əməliyyatlarında şəffaflıq təmin edilməlidir".

### ƏSAS MƏSƏLƏ QANUNLARIN İCRASIDIR

**Millət vəkili Vahid Əhmədov** Azərbaycanın 2016-cı ilə müəyyən iqtisadi problemlərlə başlandığını, lakin atılan bir sıra addımlarla bunun qarşısının alındığını söyləyib. O, ölkədə unun və çörəyin qiymətinin stabilləşdirilməsinin çox vacib qərar olduğunu qeyd edib. Bildirib ki, son dövrlər qəbul edilən qərarlar çox ciddi addımlardır: "Hər qərarın, qanunun arxasında müəyyən məbləğdə maliyyə vəsaiti dayanır və Azərbaycanın kifayət qədər maliyyət ehtiyatı var. Əmanətlərin tam sığortalanmasını nəzərdə tutan yenilik bank sistemində sağlamlaşdırma işlərinə yardımçı olacaq, insanların banklara etibarını artıracaq. Təklif olunan digər qanun layihəsinə görə, Azərbaycandan kənara 50 min dollardan artıq vəsaitin köçürülməsi dövlət büdcəsinə müəyyən verginin ödənilməsi ilə bağlıdır. Bu sənədlər çox önəmlidir. Bu dəyişikliklərin tətbiqinin nəticələrini bir ildən sonra görəcəyik. 7 il müddətinə avadanlıqların Azərbaycana gətirilməsinin vergidən azad edilməsi də iqtisadiyyatımızın inkişafına xidmət edəcək. Burada əsas məsələ qanunların icrasıdır".

### ƏMANƏTÇİLƏRİN FAİZ GƏLİRLƏRİ VERGİDƏN AZAD OLUNDU

Milli Məclis ötən gün keçirilən iclasında deputatların müzakirəsindən sonra "Əmanətlərin tam sığortalanması haqqında", "Valyuta tənzimi haqqında" qanunlara, eləcə də Vergi Məcəlləsinə dəyişikliklər qəbul edib. "Əmanətlərin tam sığortalanması haqqında" qanuna əsasən, Əmanətlərin Sığortalanması Fondunun üzv banklarında əhalinin əmanətləri depozitin məbləğindən asılı olmayaraq 3 il müddətinə sığortalanıb. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə müvafiq olaraq, fevralın 1-dən etibarən 3 il müddətində yerli bank və xarici bankın Azərbaycanda fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, faiz gəlirləri vergi ödənişindən azad edilir.

### XARİCƏ PUL KÖÇÜRMƏLƏRİNDƏN VERGİ TUTULACAQ

Bundan sonra Azərbaycanda xaricə il ərzində 50 min dolları ötən pul köçürmələrinə 20 faiz həcmində icbari yığım tətbiq edilir. Bunu "Valyuta tənzimi haqqında" qanuna dəyişikliklər nəzərdə tutur. Dəyişikliklərə əsasən, bu qayda müalicə və təhsil xərcləri, xarici ölkələrin məhkəmə və hüquq-mühafizə orqanlarının qərarlarının icrası ilə bağlı xaricə pul köçürmələrinə şamil edilməyəcək. 20 faiz həcmində icbari yığım qiymətli kağızların, daşınmaz əmlakın və torpaq sahələrinin alınması, eləcə də Azərbaycan şirkətlərinin xarici nümayəndəliklərinin saxlanılması üçün birbaşa investisiya qismində çıxarılan valyutaya da aid ediləcək. Bu yenilik əsas kapitalda dövlət payı 50 faizi ötən hüquqi şəxslərə şamil edilməyəcək.

**Rufik İSMAYILOV**

# Yeni iqtisadi siyasətin əsas konturları

## Atılan addımlar qarşıda duran bütün vəzifələrin tam icrasını və ölkənin davamlı inkişafını təmin edəcək

**Son günlər dünya bazarında neftin qiymətinin qısa müddət ərzində kəskin ucuzlaşması ortaya yeni iqtisadi reallıqlar qoyub. Dünyanın əksər ölkələrində müşahidə olunan belə çətinlik neft istehsalçısı olan Azərbaycandan da yan keçə bilməzdi. Ona görə də hökumət yaranmış mənzərəyə uyğun davranış sərgiləyir və vəziyyətdən çıxmaq üçün yeni addımlar atmağa qərarlıdır.**



Yəni yeni iqtisadi reallıqlar ona uyğun siyasət yürütməyə sövq edir ki, Azərbaycan dövləti də yeni qərarlarını bu istiqamətdə verir. Ölkə başçısı bu yöndə öz tapşırıq və tövsiyələrini səsləndirir, aidiyyəti qurumlara müxtəlif çağırışlar edir. Buna misal olaraq, son günlər Nazirlər Kabinetinin ard-arda baş tutan iki iclasını göstərə bilərik. Oradakı çıxışları zamanı ölkə başçısı bildirdi ki, yaranmış şəraitdə Azərbaycan yeni iqtisadi siyasətin reallaşdırılmasına start verir. Yeni iqtisadi siyasət qarşıda duran bütün vəzifələrin tam icrasını və ölkənin davamlı inkişafını təmin edəcək. O, ümumdünya iqtisadi böhranının Azərbaycana mənfi təsirlərinin müşahidə olunduğu və enerji resurslarının qiymətlərinin kəskin şəkildə aşağı düşdüyünü nəzərə çatdıraraq, hazırkı dövrdə həyata keçiriləcək yeni iqtisadi siyasətin əsas konturlarını da açıqladı. Qarşıdan gələn dövrdə görüləcək işlərlə bağlı prioritetlər müəyyənləşdirildi, dövlət strukturlarına müvafiq tapşırıqlar verildi.

Deyilənlərdən bu cür nəticə çıxır ki, əksər ölkələrin iqtisadiyyatına mənfi təsir göstərən iqtisadi böhran və enerji resurslarının qiymətinin kəskin düşməsi təbii proses deyil və süni şəkildə stimullaşdırılır. Hətta güclü iqtisadiyyata və maliyyə resurslarına malik ölkələr belə, bundan ciddi əziyyət çəkirlər. Məsələn, hazırda ən böyük neft ixracatçısı olan Səudiyyə Ərəbistanının üzləşdiyi problemlər, həmçinin dünyanın aparıcı ölkələrindən olan Fransada fövqəladə iqtisadi vəziyyətin elan olunması bunu əyani şəkildə təsdiq edir. Azərbaycan da neft ixracatçısı olan bir ölkə kimi belə gedişata biganə qala bilməz. Ona görə də hökumət yeni iqtisadi konturlarını bu yöndə cızır. Məlumdur ki, ölkə büdcəsinin əhəmiyyətli hissəsi enerji resurslarının satışından əldə olunan gəlirlər hesabına formalaşırdı. Amma ölkənin son 10 ildə iqtisadiyyatın qeyri-neft sektorunu inkişaf etdirməsi neftdən asılılığımızı azaltmağa müəyyən dərəcədə yardım edir. Ona görə də Azərbaycan hazırda ümumdünya iqtisadi böhranından az əziyyət çəkməyə müvəffəq olur. Hər halda, bir sıra qonşu ölkələrdə, o cümlədən Rusiya və Qazaxıstanda devalvasiyanın Azərbaycandan xeyli əvvəl yaşanması və milli valyutaların "üzən məzənnəyə" buraxılması bunu deməyə əsas verir. Amma danılmaz faktdır ki, hazırda Azərbaycanda qeyri-neft sektoru inkişaf dövrünü yaşasa da, neftin qiymətinin aşağı düşməsi şəraitində ölkənin mövcud tələbatını təmin etmək tam olaraq mümkün deyil. Buna görə də Azərbaycan Prezidenti hesab edir ki, hazırkı dövrdə həm yaranmış vəziyyətin ölkəyə mənfi təsirinin qarşısını almaq üçün çevik tədbirlər həyata keçirilməli, həm də prioritet sahə hesab olunan qeyri-neft sektorunun daha sürətli inkişafı təmin edilməlidir. Bunun üçün isə əlavə təsirli mexanizmlər işə salınmalıdır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün ən zəruri addımlar regionların inkişafı, müasir iqtisadi və sosial infrastrukturun yaradılması və s. hesab olunur ki, bunun da müəyyən qismi artıq həyata keçirilib. Əgər vaxtilə qeyri-neft sektoru inkişaf etdirilməsəydi, bu gün ölkə daxilində bu işlərin davamını həyata keçirmək mümkün olmazdı. Ekspertlər də hesab edirlər ki, ötən dövr ərzində qeyri-neft sektorunun inkişaf etdirilməsi, paytaxtda və regionlarda sosial və iqtisadi infrastrukturun ən müasir standartlara uyğun qurulması qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün tam şərait yaradır. Bu məqamın özü də Azərbaycan Prezidentinin praqmatik və uzaqgörən siyasət yürütdüyünü bir daha təsdiq edir. 2004-cü ildə iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsi və müasir cəmiyyət quruculuğuna dair mühüm qərar qəbul olunması, həmçinin son 10 il ərzində müxtəlif istiqamətlər üzrə zəruri tədbirlər həyata keçirilməsi hazırkı dövrdə effektli iqtisadi-maliyyə və sosial siyasətin yürüdülməsinə etibarlı zəmin yaradır.

Hazırkı dövrdə həm əhali, həm də dövlət üçün ən uğurlu addımlardan biri ölkəni xarici idxaldan olan asılılıqdan qurtarmaq ola bilər. Hətta bunu ən prioritet məsələ də adlandırmaq olar. Ölkədaxili istehsalın inkişafı həm rəqabət mühitini artırar, həm də, necə deyərlər, xeyir vətənə qalar. Üstəgəl, bu məqam qiymətlərin birmənalı şəkildə aşağı düşməsini də təmin edər.

Məlumdur ki, dolların qiyməti manat qarşılığında xeyli bahalaşıb. Belə bir dövrdə idxal səbəbilə ölkədəki dolların xaricə daşınmasına ehtiyac yoxdur. Çünki Azərbaycanın çox münbit torpağı var və burada kənd təsərrüfatı məhsulları istehsal etmək heç də çətin iş deyil. Bunun üçün həm əkinə yararlı torpaqlar var, həm də hökumət tərəfindən əkinçilərə subsidiyalar verilirsə, həmin məhsul niyə ölkəmizdə istehsal olunmasın? Və ya belə deyək - hər hansı tərəvəzi ölkəmizdə yetişdirmək mümkündürsə, nəyə görə onu geni modifikasiya olunmuş vəziyyətdə yeməliyik?

Təbii ki, yerli istehsala keçmək müəyyən qədər vaxt aparan məsələdir və bunu birdənbirə etmək mümkün deyil. Ekspertlər də bu məqamla bağlı fikirlərini bölüşür, təkliflərini səsləndirirlər. Belə düşünürlər ki, prioritet addımlardan biri yerli malların tərkibində işlədilən xarici komponentlərin daxildə istehsalını təşkil etməkdir. Həmin xarici komponentlərin daxildə istehsalı başlanana qədər isə ilkin addım kimi onların idxalına vergi və gömrük güzəştləri tətbiq oluna bilər.

Çıxış yollarından biri də Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə fermerlərə, iş adamlarına kreditlərin verilməsinin davam etdirilməsi hesab olunur. Nəzərə çatdıraq ki, bu il ən azı 250 milyon manat güzəştli kredit verilməsi nəzərdə tutulur. Sahibkarların yerli istehsala yatıracağı vəsaitlər nəzərə alınmaqla, iqtisadiyyatın real sektoruna investisiyaların həcmi 1 milyard manata yaxın olacaq. Dövlət başçısı hesab edir ki, azərbaycanlı iş adamları sərmayələrini ilk növbədə öz ölkəmizə qoymalıdırlar. Ekspertlərin də bu yöndə müxtəlif təklifləri var. Onların fikrincə, sahibkarlığın inkişafına dövlət dəstəyi baxımından daha bir neçə addım atıla bilər. Məsələn, daxili bazarda istehsal məhsullarının qiymətlərinin təbii yolla tənzimlənməsi üçün tədbirlər görülməsinə ehtiyac var. Dövlət başçısı açıqlayıb ki, yaradılan iri fermer təsərrüfatları, taxılçılıqla məşğul olan təsərrüfatlar və yeni yaradılacaq müəssisələr qısa müddət ərzində bu problemin həllinə kömək göstərəcək. Dövlət həmçinin çalışır ki, iqtisadi fəallıq bütün sferaları, o cümlədən tikinti sektorunu da əhatə etsin. Çünki tikinti inkişafın əsas göstəricilərindən biridir və iş yerlərinin açılmasında önəmli rol oynayır. Dövlət başçısı hesab edir ki, iş adamlarına qarşı əsassız tələblər yığışdırılmalı, tikinti sektoru tam sərbəst şəkildə inkişaf etməlidir. Digər tərəfdən, ipoteka xətti ilə böyük tikinti layihələri icra edilməli, bu sahədə təxirəsalınmaz tədbirlər görülməlidir. Ekspertlər də bu addımları yüksək qiymətləndirir və həm mövcud vəziyyətə uyğun, həm də gələcək üçün əhəmiyyətli hesab edirlər. Düşünürlər ki, geniş özəlləşdirmə proqramı hazırlanmalı və həyata keçirilməli, həm xarici, həm yerli investorlar bu işə cəlb edilməlidir. Özəlləşdirmə proqramı tam şəffaf şəkildə həyata keçirilməli, bu işə beynəlxalq ekspertlər cəlb olunmalıdır. Yerli və xarici investorlar üçün elə şərait yaradılmalıdır ki, onlar böyük maraq və həvəslə bu prosesdə iştirak etsinlər. Nəzərə çatdıraq ki, özəlləşdirmə böyük həcmdə yerli və xarici investisiyaların ölkə iqtisadiyyatına axınını təmin edə bilən məsələdir. Bu, bir tərəfdən biznes mühitini yaxşılaşdıra, digər tərəfdən də iqtisadi canlanmanı sürətləndirə bilər. Onu da nəzərə çatdıraq ki, yeni iqtisadi siyasətin çərçivəsində görüləcək işlər təkcə sadaladıqlarımızla bitmir. Bundan əlavə, maliyyə sektoru, sosial və s sahələrdə də bir sıra işlərin həyata keçirilməsi planlaşdırılır. Bütün bunlar Azərbaycan hakimiyyətinin yeni reallıqlara uyğun çevik və dinamik siyasət yürütməsinin real göstəricisidir. Əsas məqsəd isə ölkənin yaranmış durumdan daha az itki ilə çıxmasının təmin edilməsi, iqtisadi inkişaf tempinin qorunub saxlanılmasıdır.

**H.Əsgər**

# Sanksiyaların ləğvi İrana cənnət vəd etmir

## Ucuz neft qiymətləri və zəif iqtisadi göstəricilər problem olaraq qalacaq

**Şübhəsiz ki, bu ilin ən önəmli xəbəri qonşu İran üzərindən beynəlxalq sanksiyaların götürülməsi barədə xəbər olacaq. Belə bir fikir var ki, bu sanksiyaların ləğvi İranın iqtisadi cəhətdən inkişafına, onun tək regionun deyil, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri sırasına daxil olmasına səbəb ola bilər.** Lakin neft qiymətlərinin aşağı düşməsi və İranın zəif iqtisadi göstəriciləri o anlama gəlir ki, bu ölkə iqtisadi mənada ciddi üstünlüklər əldə edə bilməyəcək. Bəlli olduğu kimi, İran üzərindən ABŞ və Avropa İttifaqının beynəlxalq sanksiyaları götürüldükdən sonra rəsmi Tehranın xarici banklardakı hesabları üzərindən də həbs qərarı ləğv edilib. Lakin qadağaların ləğvi İran üçün ən pis iqtisadi şəraitdə baş tutub. Son il yarım ərzində dörd dəfə aşağı düşən neft qiymətləri hazırda 30 dollardan da aşağıdır. Analitiklər hesab edirlər ki, aşağı qiymətlər hələ uzun müddət qalacaq. Bu səbəbdən də İrana xammal iqtisadiyyatı şəraitində duruş gətirmək çətin olacaq. Sanksiyalar götürüldükdən sonra İran neftin çıxarılmasını gün ərzində 500 min barelə çatdırmaq niyyətindədir. Əlavə edilib ki, il ərzində bu rəqəm 1 milyon barelə çatdırıla bilər. Beləliklə də, İran bazara gün ərzində yarım milyon barel neft çıxara biləcək. Lakin iş orasındadır ki, İranın əzəli rəqibləri Səudiyyə Ərəbistanı və Rusiya Tehranın onun bazara girməsində o qədər də maraqlı deyillər. İlk növbədə Səudiyyə Ərəbistanı rəqiblərini sıradan çıxarmaq üçün bazara



rekord həcmdə neft çıxarır. Bundan əlavə, İran və Səudiyyə Ərəbistanı arasında düşmənçilik üzündən Neft İxrac Edən Ölkələrin Təşkilatı (OPEK) gəlir və neft qiymətlərinin tənzimlənməsini həyata keçirə bilmir. İrandakı əlverişsiz iqtisadi şərait də ölkəyə ciddi ziyan vurur. Transparency International beynəlxalq təşkilatı bu ölkəni özünün korrupsiya cədvəlində son yerlərdən birində qərarlaşdırıb. Belə ki, İran 175 ölkə arasında 136-cı yerdə müəyyən edilib.

Dünya Bankı da İran iqtisadiyyatı ilə bağlı çox bədbin proqnoz verib. Ötən ay bankın İranın 2015-2016-cı il üçün ümumdaxili məhsulun artım həcmi ilə bağlı proqnozu sıfır həddində müəyyən edilib. Ölkədə işsizliyin həddi isə kəskin şəkildə artmaqdadır. Bundan əlavə, ixracatın da həcmi aşağı düşüb. Beynəlxalq Valyuta Fondunun da proqnozları ürəkaçan deyil. Bankın hazırladığı hesabatda ölkənin xarici borcunun kəskin şəkildə artdığı bildirilib. Regionda vəziyyətin qeyri-sabit olması və Qərbə qarşı İranın inqilabçı elitasının düşmən münasibətinin qalması da investorların bir qismini bu ölkəyə gəlməkdən çəkindirəcək. İranın iri layihələrinə investisiya qoyulmasına gəlincə, bu məsələ bir qədər mürəkkəbdir. Bir çoxları bir məsələdən narahatdırlar. Onlar hesab edirlər ki, İran 100 mlrd. dollarlıq aktivləri əldə etməklə, regionda vəziyyəti gərginləşdirməyə yönəlik addımları artıra və terrorizmə verdiyi dəstəyi gücləndirə bilər. Bəziləri isə hesab edir ki, əhalisinin sayı 80 milyona çatan və ümumdaxili məhsulunun həcmi 1,4 trln dollara yüksələn İrana dözümlü valyuta gərəkdir. İstənilən halda, müdafiəyə sərf edilən vəsaitlərin həcminə görə, İran Fars körfəzi üzrə qonşularından 7 dəfə geri qalır. Qərb ekspertləri hesab edirlər ki, İran prezidenti Həsən Ruhani üçün Qərbin ləğv edilən sanksiyalardan tez bir zamanda gəlir əldə etmək asan olmayacaq. Burada o öz nüfuzu və liderliyini riskə atmış olur. Onu iqtisadi islahatları həyata keçirmək arzusu ilə seçiblər. Lakin hələ ki, ortada bir şey yoxdur. Sanksiyaların ləğvi İranın ümumi problemlərini həll edə bilməyəcək. Fevral ayında bu ölkədə parlament seçkilərində praqmatiklər qələbə qazansalar belə, onlar radikal iqtisadi inkişafa nail ola bilməyəcəklər. İranın qlobal maliyyə sisteminə daxil olmasına baxmayaraq, iqtisadi bəlalar nüvə razılaşmasını tormozlanmasına və ölkənin iqtisadi inkişafına səbəb olmayacaq.

**Azər NURİYEV**

# 20 YANVAR - ƏSARƏTİN SON GECƏSİ

**Hər bir xalqın hansı dərəcədə milli birliyə, milli iradəyə və milli özünüdərkə malik olması məhz onun üzləşdiyi ən çətin anlarda mövcud proseslərə və çağırışlara ümumxalq reaksiyasında özünü göstərir. 26 il əvvəl üzləşdiyimiz belə bir məqamda xalqımızın mübarizlik əzminin təzahürü, təzyiqlərə boyun əyməyən əzmkar iradə nümayiş etdirməsi tariximizə yeni bir mübarizə səhifəsi yazdı - Qanlı Yanvar səhifəsi. 20 Yanvar yaxın keçmişimizdə yaşamış olduğumuz ən faciəvi günlərdən biri olsa da, xalqımızın yaddaşına həm də qəhrəmanlıq tarixi kimi həkk olundu.**



Soyuq 20 yanvar səhəri açılmağa macal tapmamış bəşər tarixinin insanlığa sığmayan ən faciəvi hadisələrindən biri- Bakı küçələrində dinc nümayişçilərin güllələnarı baş verdi: Azərbaycana nəyin bahasına olursa-olsun milli mücadiləni boğmaq və yatırtmaq məqsədi ilə yeridilən rus qoşunları Bakıda və respublikanın müxtəlif rayonlarında 131 nəfər mülki şəxsi küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirdi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu.

Həmin günün mənzərəsi faciəvi olduğu qədər də möhtəşəmdir. Azadlığımızın bərpası yolunda ilk şəhidlərin verildiyi Qanlı Yanvar gecəsi cəsarətin, fədakarlığın, milli məfkurənin dönməz oyanışının əyani təcəssümü idi. Baş verən hadisələr xalqımızın azadlıq arzusunun, müstəqillik idealının 70 il davam edən sovet hərb maşınının repressiyasına rəğmən sönmədiyini, əksinə, yeni güc qazandığını bir daha nümayiş etdirdi. Bununla Azərbaycan xalqı zülmə, ədalətsizliyə və zorakılığa boyun əyməyəcəyini, milli iradəsinin sarsılmazlığını təkcə imperiya rəhbərliyinə deyil, bütün dünyaya göstərdi və özünün milli azadlığı uğrunda mübarizəsinin dönməz olduğuna şübhə yeri qoymadı. 20 Yanvar faciəsi, sözün əsl mənasında, xalqımızın milli özünüdərkində yeni bir mərhələnin başlanğıcı oldu. Xalq öz qərarını verdi: Yolumuz -Azadlıqdır!

Baş verənlər Azərbaycan xalqının milli mübarizə əzmini və iradəsini sındıra bilmədi. Əksinə, 20 Yanvar hadisəsi öz qanunauyğun məntiqi və zəncirvari təsiri ilə bütün imperiya ərazisində milli azadlıq hərəkatlarının yenidən daha böyük vüsətlə alovlanmasına və Sovet İttifaqının süqutunun daha da sürətlənməsinə rəvac verdi. Bu hadisə Sovet İmperiyası üçün "sonun başlanğıcı" oldu. O zamana qədər hələ də Azərbaycanın müstəqilliyinə müəyyən qədər skeptik yanaşanlar da bu hadisənin baş verməsi ilə artıq imperiya boyunduruğunda yaşamağın qeyri-mümkünlüyünü dərk etdilər və milli azadlıq hərəkatının aktiv iştirakçılarına çevrildilər. Bu faciəvi olay onilliklər ərzində insanlara sırınan "humanist" əsaslı kommunizm ideologiyasının puçluğunu sübut etdi və məhz bu hadisədən sonra Kommunist Partiyasından kütləvi istefalar, cəmiyyətin bütün təbəqələri tərəfindən müxtəlif formalarda ifadə olunan etirazlar İttifaqın hər yerini bürüdü və onun dayaqlarını sarsıtdı. Həmin ərəfədə SSRİ-nin bir çox respublikalarında İttifaq əleyhinə etirazlar baş qaldırmışdı. Gürcüstan və Baltikyanı ölkələrdə də hərbi qoşun hissələri tərəfindən dinc nümayişçilərə qarşı silah tətbiq olunmuşdu. Lakin Azərbaycanda baş qaldıran etirazlara qarşı törədilmiş 20 Yanvar hadisəsi öz qəddarlığı, misli görünməmiş vəhşiliyi və dağıdıcı miqyası ilə əvvəlki olaylardan çox fərqlənirdi. Xüsusi qəddarlıqla müşayiət olunan kütləvi qətliam aktının həyata keçirildiyi müddətdə SSRİ müdafiə naziri Dmitri Yazovun, daxili işlər naziri Vadim Bakatinin və digər yüksək rütbəli hərbçilərin Bakıda olması bu qanlı cinayət əməlinin əvvəlcədən planlaşdırılmış olduğunu göstərirdi. İmperiyanın hərbi qoşun hissələrinin fövqəladə vəziyyət elan edilmədən Bakıya yeridilməsi həm ölkə qanunvericiliyinin, həm də beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması demək idi. "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı yalnız qanlı cinayət hadisəsi törədildikdən sonra elan edilmişdi. Görünür, imperiya rəhbərliyinin xalqımıza qarşı qəzəb hissi o qədər güclü və hərbi təcavüz həyata keçirmək niyyəti o qədər qəti idi ki, törətdiyi qeyri-insanlıq aktına əvvəlcədən "hüquqi don" geyindirməyə belə ehtiyac duymamışdı. Baş verəcək hadisələrin və faciənin miqyası barədə məlumatların geniş xalq kütləsinə çatdırılmasının qarşısını almaq məqsədi ilə Azərbaycan televiziyasının enerji blokunun partladılması da qanlı cinayət əməlinin əvvəlcədən müəyyən edilmiş plan əsasında həyata keçirildiyini bir daha göstərir. Bununla respublika televiziyası və radiosunun verilişləri tamamilə kəsilmiş və bütün ölkə ərazisində informasiyasızlıq mühiti yaradılmışdı. Ancaq həmişə millətləri qaranlıqda və məlumatsızlıqda idarə etməyə alışmış düşmənlərimiz bilmirdilər ki, bu zaman insanların səsini bir-birinə çatdıran, o səsləri Xalqın Səsinə çevirən yenilməz bir qüvvə vardı bu millətin canında - Onların Azadlıq sevgisi! Bu sevgini boğmağa isə heç bir Yumruğun gücü çatmayacaqdı! İmperiyanın zor gücünə söykənmiş siyasəti ilə Azərbaycan xalqının məğrurluğu və qırılmaz iradəsi qarşılaşarkən hansı tərəfin məğlubiyyətə düçar olacağı əvvəlcədən aydın idi. Sadəcə, Mixail Qorbaçov və onun ətrafındakı cinayətkarlar bunu anlaya bilməzdilər. Yarandığı gündən etibarən xalqımıza qarşı qərəzli siyasət yürüdən sovet imperiyası belə bir qəddarlıq aktı ilə özünün düşmənçilik "ənənəsindən" əl çəkmədiyini bir daha göstərdi. Qorbaçov başda olmaqla İttifaqın bütün vəzifəli şəxslərinin ciddi heç nə olmamış kimi davranmaları, törətdikləri qanlı cinayəti ört-basdır etmək cəhdləri Azərbaycan xalqına qarşı olan qərəzin və nifrətin açıq təzahürü idi. Azərbaycan SSR rəhbərliyinin qanlı olay barədə bəyanat belə verməməsi, belə bir çətin anda xalqın dərdinə şərik çıxmaması xüsusilə təəssüf doğuran məqam idi. "Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın bir sıra siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etmişdir. Respublika rəhbərliyi hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilməmişdi" (20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanından, 16 dekabr 1999, № 228). Bu fakt bir daha hakimiyyətlə xalq arasında o zaman dərin uçurumun yarandığını və hakimiyyətdə təmsil olunan şəxslərin xalqın iradəsini ifadə etmək iqtidarında olmadığını göstərirdi.

Qanlı Yanvar faciəsindən sonra bu hadisəyə verilən reaksiyalar və ya ümumiyyətlə, hadisəyə münasibət bildirilməməsi kimin kim olduğunu və kimin hansı məqsədə xidmət etdiyini tam aydınlığı ilə göstərdi. Xalqın taleyüklü bir anında ümummilli lider Heydər Əliyevin ən faciəvi günlərindən birini yaşayan Azərbaycan xalqının acısına şərik çıxması onun öz xalqına olan sonsuz məhəbbətinin ifadəsi idi. Sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisə ilə bağlı elə ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək öz xalqına başsağlığı diləyən Heydər Əliyev xüsusi qəddarlıqla törədilmiş cinayətin təşkilatçılarını və icraçılarını cəsarətlə ittiham etdi və onların cəzalandırılmasını tələb etdi. Bu qanlı faciənin önlənə bilməsi üçün bütün imkanların mövcud olduğu bir şəraitdə belə bir qeyri-insani hadisənin törədilməsini kökündən yanlış addım kimi qiymətləndirən Heydər Əliyev bu cür yollarla Azərbaycan xalqının iradəsini qırmağın mümkün olmadığını və olmayacağını açıq şəkildə bəyan etdi. Bütün təhlükələrə baxmayaraq, xalqımıza qarşı törədilmiş qanlı faciənin əsl səbəbkarlarının elə həmin gün imperiyanın mərkəzindən bütün dünyaya bəyan edilməsi -xalqımızın üzləşdiyi ən çətin məqamlarda Heydər Əliyevin ümummilli mövqedən çıxış etmək cəsarətini, onun təkcə xalqın qələbələrinin deyil, həm də dərdinin önündə dayandığını bir daha sübut etdi.

**Xalqın taleyüklü bir anında ümummilli lider Heydər Əliyevin ən faciəvi günlərindən birini yaşayan Azərbaycan xalqının acısına şərik çıxması onun öz xalqına olan sonsuz məhəbbətinin ifadəsi idi. Sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisə ilə bağlı elə ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək öz xalqına başsağlığı diləyən Heydər Əliyev xüsusi qəddarlıqla törədilmiş cinayətin təşkilatçılarını və icraçılarını cəsarətlə ittiham etdi və onların cəzalandırılmasını tələb etdi.**

Cinayətin törədildiyi vaxtdan keçən bir neçə illər ərzində 20 Yanvar hadisələrinə lazımi siyasi-hüquqi qiymətin verilməməsi də vacib məsələlərdən biri idi. Mövcudluğunun mahiyyətində zorakılıq və hegemonluq daşıyan imperiyanın onun rəhbərliyi tərəfindən verilən göstəriş əsasında baş vermiş bəşəri cinayətə hüquqi qiymət verə biləcək qədər səmimiyyətə və iradəyə malik olmadığı əvvəlcədən məlum idi. Ona görə də 1990-cı ilin dekabrında SSRİ Baş hərbi prokurorluğunun hərbi qulluqçuların 20 yanvarda Bakıda baş vermiş hadisələrlə bağlı əməllərində cinayət tərkibi görməyərək işə xitam verməsi heç kimi təəccübləndirməmişdi. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi tərəfindən faciəli olayların araşdırılması ilə bağlı yaradılmış İstintaq komissiyasının fəaliyyətinin heç bir nəticə və heç bir əsas olmadan dayandırılması isə təəccüb doğurmaya bilməzdi. Bu, o zamankı ölkə rəhbərliyinin baş vermiş qanlı faciəyə siyasi-hüquqi qiymət verə bilmək iqtidarında olmadığını nümayiş etdirirdi. Təəssüf ki, daha sonra 1992-ci ilin 19 yanvarında qəbul edilmiş "1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə qoşunların yeridilməsi ilə əlaqədar faciəli hadisələrin təfsilatının və səbəblərinin təhqiqi üzrə Azərbaycan Respublikası Ali Soveti komissiyasının işinin yekunlarına dair" Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının Qərarında da ölkənin ali qanunverici orqanının qeyd olunan komissiyanın fəaliyyətinin qənaətbəxş olması ilə kifayətlənməsi, qanlı hadisənin sifarişçiləri və icraçılarının göstərilməməsi Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri olan 20 Yanvar faciəsinə ciddiyyətinə və əhəmiyyətinə görə qiymət verilmədiyini bir daha təsdiqlədi.

20 Yanvar hadisələrinin təkcə xalqımıza qarşı deyil, bütün insanlığa qarşı cinayət olduğunu sübut etmək, faciə qurbanlarının hüquqlarının müdafiəsini təmin etmək, axıdılmış günahsız qanların baiskarlarının cəzalandırılması üçün siyasi, hüquqi zəmin formalaşdırmaq olduqca önəmli məsələ idi. Məhz buna görə Prezident Heydər Əliyevin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 5 yanvar 1994-cü il tarixli Fərmanında Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən 1992-ci ildə qəbul olunmuş müvafiq Qərarda yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığı və həqiqi günahkarların aşkar edilmədiyi nəzərə çatdırıldı və Azərbaycan Respublikasının Milli Məclisinə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi və bu məqsədlə Milli Məclisin xüsusi sessiyasının keçirilməsi tövsiyə edildi.

Beləliklə, 1994-cü ilin martında Azərbaycan Respublikasının Milli Məclisi 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi haqqında xüsusi Qərar qəbul etdi. Bu Qərarın qəbul edilməsinin əhəmiyyəti ondan ibarət idi ki, haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və hərbi cinayət kimi qiymətləndirildi, qanlı faciənin sifarişçiləri və icraçıları açıq şəkildə bəyan edildi və bu cinayətin istintaqını həyata keçirən hüquq-mühafizə orqanlarının fəaliyyətinin qənaətbəxş olmadığı bildirildi. Bununla da, nəhayət ki, qanlı faciəyə dövlət səviyyəsində münasibət bildirilməsi təmin edildi.

Faciədən 26 il keçir. Əbədi, dönməz və sarsılmaz müstəqilliyimizin işığında yaşayan xalq hər il yanvarın 20-də Şəhidlər Xiyabanına üz tutur, azadlığımızın qandallarını sındırmış şəhidlərimizi ehtiramla yad edir. Şəhidlər Xiyabanını ziyarətə gələn yüz minlərlə həmvətənimiz azadlığımız uğrunda şəhid olmuş soydaşlarımızın məzarı qarşısında baş əyərək onların xatirəsini əziz tutur. Prezident İlham Əliyevin Şəhidlər Xiyabanını ziyarət edərkən vurğuladığı kimi: "Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq. Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır."

Bəli, şəhidlər unudulmaz. Onlar xalqın azadlığı yolunda canlarından da keçməyə hazır olduqlarını göstərdilər və bu yolla getdilər.Ölümə gedən yollar onları ölməzliyə - əbədiyyətə, xalqımızı isə əbədi azadlığa qovuşdurdu. Bu bir tarixdir. Qanlı, amma Şərəfli bir tarix. Tarix isə onu unudanları bağışlamır.

*Şəhidlərimizə əbədi rəhmət*
*və xalqımıza əbədi azadlıq arzusu ilə,*

**Cavanşir Feyziyev**
**Milli Məclisin deputatı**
**Fəlsəfə doktoru**

# Özəlləşdirmə yaxşı nəticələr vəd edir

## Ekspertlərin sözlərinə görə, bu proses iqtisadi cəhətdən önəmli olmaqla yanaşı, həm də çevik idarəetmə sisteminin formalaşmasına gətirib çıxaracaq

**Prezident İlham Əliyev iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirədə bildirib ki, biznes mühitini yaxşılaşdırmaq və iqtisadi canlanmanı sürətləndirmək üçün mütləq geniş özəlləşdirmə proqramı həyata keçirilməlidir. Bununla bağlı müvafiq göstərişlər verən ölkə başçısı deyib ki, proqram tam şəffaf həyata keçirilməli, beynəlxalq ekspertlər bu işə cəlb olunmalıdır. Yerli və xarici investorlar üçün elə şərait yaradılmalıdır ki, onlar böyük maraq və həvəslə vəsait qoysunlar.**

İqtisadçı ekspertlər də indiki durumda özəlləşdirmə aparılması ilə bağlı addımlar atılmasının vacibliyini vurğulayırlar. Bəs indiki məqamda hansı sahələrin özəlləşdirilməsinə ehtiyac var? Bu özəlləşdirmə nəticəsində büdcəyə daxil olan vəsaitin nə qədər artmasına nail olmaq mümkündür? Ümumilikdə özəlləşdirmə ölkə iqtisadiyyatına nə verəcək?

### 3 MÜHÜM MƏQSƏD

**İqtisadçı alim Vüqar Bayramov** qəzetimizə açıqlamasında bildirdi ki, hazırkı iqtisadi vəziyyətdə özəlləşdirmənin həyata keçirilməsinin üç mühüm məqsədi var. Birinci məqsəd ölkəyə investisiyanın cəlb edilməsi ilə bağlıdır: ”Prezident xarici investorların özəlləşdirmə prosesinə cəlb edilməsinin əhəmiyyətindən danışdı. Eyni zamanda, xarici investorların özəlləşdirmə prosesində iştirakının artırılmasında marağın yaradılması, fəaliyyətin həyata keçirilməsi ilə bağlı tapşırıqlarını verdi. Məqsəd yalnız yerli deyil, həm də xarici investorların cəlb edilməsi yolu ilə ölkəyə valyuta axınına nail olmaqdan ibarətdir. Çünki ölkəyə valyuta axınının olmasına ehtiyac var. Valyuta axını isə birbaşa xarici investorların ölkəyə daxil olması ilə mümkündür”.

İqtisadçının sözlərinə görə, ikinci əsas məqsəd özəlləşdirmə nəticəsində büdcəyə daxilolmaları artırmaqdan ibarətdir: ”Neftin dünya bazarında qiyməti aşağı düşdükcə Azərbaycanın dövlət gəlirləri son bir ildə 3 dəfə azalıb. Büdcə gəlirlərinin artırılması üçün əlavə gəlir mənbələrinin müəyyənləşdirilməsinə və istifadə edilməsinə ehtiyac var. Əlavə gəlir mənbələrindən biri də özəlləşdirmədir. Özəlləşdirmə dövlət büdcəsinə əlavə vəsaitlərin daxil olmasına imkan yarada bilər”.

V.Bayramov deyir ki, üçüncü məqsəd isə idarəetmədə çevikliyin formalaşdırılmasıdır: ”Xüsusilə tənzimlənən qiymətlər olan sektorlarda özəlləşdirmə prosesini həyata keçirməklə daha çevik idarəetmə sisteminin formalaşmasına nail olmaq, qərarların verilməsi prosedurlarının şəffaflaşdırılmasını həyata keçirmək mümkündür. O baxımdan əslində özəlləşdirmə prosesinə yalnız dövlət mülkiyyətinin özəl mülkiyyətə keçməsi kimi baxmaq düzgün olmazdı. Çünki bu həm də qeyd etdiyim üç əsas məqsədi ehtiva edir”.

### ÖZƏLLƏŞDİRİLMƏLİ SAHƏLƏR

İqtisadçı özəlləşdirilməsi mümkün olan sektorlardan da danışdı. O, ilk olaraq ”Azərbaycan Hava Yolları”nın (AZAL) özəlləşdirilməsinin vacibliyini vurğuladı: ”AZAL-ın səhmlərinin ən azı 49 faizinin özəlləşdirilməsi və satılmasını təklif etmişdik. Çünki bu, vəsait əldə etmək cəhətdən vacibdir. Xarici investorları bu tip şirkətlərin özəlləşdirilməsinə cəlb etmək asandır. Həm də bu, korporativ idarəetmə sisteminin formalaşdırılmasına kömək etmiş olacaq. Çünki AZAL-la bağlı ən ciddi məsələlərdən biri xərclərin yüksək olması və korporativ idarəetmə sisteminin formalaşdırılmaması ilə bağlıdır. Özəlləşdirmə daha yaxşı idarəetmə sisteminin formalaşmasına imkan verə bilər”.

V.Bayramov enerji sektoru və kommunal xidmətlərlə bağlı özəlləşdirmənin də böyük effekt verəcəyini bildirdi: ”Enerji sektorunda özəlləşdirmənin davam etdirilməsinin tərəfdarıyıq. ”Azərenerji”nin səhmlərinin mərhələli özəlləşdirilməsi mümkündür. Çünki bu, vəsait cəlb etmək imkanlarına malikdir. Kommunal xidmətlərin, o cümlədən ”Azərsu”nun özəlləşdirilməsinə ehtiyac var. Çünki kommunal xidmətlərin göstərilməsində xüsusilə bu ilin qış aylarında problemlər müşahidə olundu. Bu da birbaşa idarəetmənin çevik olmadığını göstərdi. O baxımdan idarəetmədə çeviklik yaratmaq üçün bu sektorlarda da özəlləşdirmənin aparılmasına ehtiyac var”.

Rabitə sektorunda fəaliyyət göstərən bəzi dövlət şirkətlərinin özəlləşdirilməsinin də mümkün olduğunu deyən V.Bayramov onu da qeyd etdi ki, mövcud mülkiyyət növlərinə baxsaq, qeyd etdiyimiz sektorla yanaşı, özəlləşdirmənin aparılması ilə bağlı xeyli imkanlar və şirkətlər var. Onların özəlləşdirməyə açılması birmənalı şəkildə imkan verəcək ki, həm valyutaya olan tələbatın ödənilməsində yeni mənbə əldə etmək mümkün olsun, həm də təbii ki, bu, iqtisadi aktivliyə şərait yaradacaq.





### "TAPŞIRIQLAR YERİNƏ YETİRİLSƏ, NƏTİCƏ MÜSBƏT OLAR"

**”Ekonomiks” Beynəlxalq İqtisadi Araşdırmalar Birliyinin sədri, iqtisad elmləri doktoru, professor Fikrət Yusifov** deyir ki, Prezidentin verdiyi tapşırıqlar yerinə yetirilsə, özəlləşdirmə ilə bağlı yaxşı nəticələr əldə etmək mümkün olacaq: ”Yaranmış böhran vəziyyətindən çıxışın konkret yollarını Prezident proqram şəklində belə ifadə etdi: ”Bizim bütün iqtisadi və maliyyə sistemimiz şəffaflaşdırılmalıdır. Bank sektoru inkişaf etməlidir. Biznes mühiti daha da yaxşılaşdırılmalıdır. İş adamlarına daha da yaxşı şərait yaradılmalıdır. Bütün bürokratik əngəllər aradan qaldırılmalıdır. Bu tapşırılar yerinə yetirilməlidir. Belə olan halda biz tezliklə müsbət dinamikanı sürətləndirə bilərik”. Həqiqətən də bu istiqamətlərin reallaşdırılması sonda bizim iqtisadiyyatımızın qısa zaman ərzində neftdən asılılığını minimuma endirə bilər”.

F.Yusifovun sözlərinə görə, bu gün islahatların ana xəttini pul-kredit sistemində sabitliyin yaradılması, manatın nüfuzunun bərpa edilməsi təşkil etməlidir. Biz buna nail ola bilməsək, iqtisadiyyatın real sektoruna həm daxili, həm də xarici investisiyaların yatırılması işi müşkülə çevrilə bilər: ”Bu sahədə başlıca vəzifə ölkənin pul-kredit sistemini dollar asılılığından qurtarmaqdır. Qısa zaman kəsiyində əhalinin dollarla olan kreditləri və əmanətlərinin manatla əvəzlənməsi mexanizmləri işlənib hazırlanmalı və tətbiq edilməlidir. Əks halda əhalinin kreditlərə görə, bankların isə əmanətlərə görə düşdüyü labirintin sonu yaxşı heç nə vəd etməyəcək”.

Ekspert deyir ki, bu gün böhranlı vəziyyətə və bütün başqa çətinliklərə baxmayaraq, Azərbaycan hökuməti öz büdcəsi vasitəsilə əhalinin büdcədən maliyyələşən böyük bir kontingentinin əmək haqlarının artırılmasını təmin edə bildi. Bu isə o deməkdir ki, başqa neft ölkələrindən fərqli olaraq, bizim maliyyə imkanlarımız daha genişdir. Lakin buna baxmayaraq, yaxın bir-iki il ərzində qeyri-neft sektorunu əsaslı inkişaf etdirməsək, vəziyyət ağırlaşa bilər. Ona görə də bu gün təxirə salınmadan yerlərdə yeni müəssisələr qurmaq hesabına iş yerlərinin açılmasını, daxili bazarın tələbatını tam ödəyəcək məhsulların, eyni zamanda ixracyönlü məhsulların istehsalını və büdcəyə ödəniləcək vergilərin artırılmasını təmin edə biləcək addımlar atılmalıdır.

### ÖZƏLLƏŞDİRMƏDƏ DÜNYA TƏCRÜBƏSİ

F.Yusifov bildirdi ki, vətəndaş cəmiyyəti bu işlərin uğurla aparılması üçün hökumətə, ölkə rəhbərliyinə yaxından kömək etməyə borcludur: ”Prezident ölkədə ictimai nəzarətin gücləndirilməsi ilə bağlı dəfələrlə vətəndaş cəmiyyətinə müraciət etmişdi. Təbii ki, qarşıda duran məsələlərin həllində ictimai nəzarətin və xüsusilə də vətəndaş cəmiyyəti tərəfindən həyata keçiriləcək ictimai nəzarətin rolu kifayət qədər böyük olacaq. Prezidentin son müşavirədə ölkədə indiyə qədər özəlləşdirilməyən dövlət əmlakının özəlləşdirilməyə çıxarılması və bu işin maksimum şəffaf şəkildə həyata keçirilməsi barəsində səsləndirdiyi bəyanatlar yaxın zaman kəsiyində ölkədə bu istiqamətdə ciddi addımların atılacağından xəbər verir”.

F.Yusifov deyir ki, bu gün Azərbaycanda bir çox özəlləşdirilməmiş müəssisələr var ki, fəaliyyətləri ya tam dayanıb, ya da öz imkanlarının 1/5-i səviyyəsində iş görürlər. Dünya təcrübəsində belə müəssisələrin yenidən qurulması və onların maksimum səmərəli işləməsi üçün tətbiq olunan əsas yol həmin müəssisələrin özəlləşməsindən keçir: ”Dediyimiz məsələlərə bir misalla daha yaxşı aydınlıq gətirmək mümkündür. Tarix boyu özəl mülkiyyətdə olan İngiltərənin dəmir yolları İkinci Dünya müharibəsindən sonra bir neçə mərhələ ilə 1948-ci ilə qədər tam dövlət mülküyyətinə alındı. Bundan sonra nə baş verdi? Növbəti ildən etibarən dəmir yolları vasitəsilə daşınan yüklərin həcmi və dəmir yolu nəqliyyatından istifadə edən sərnişinlərin sayı ilbəil azalmağa başladı.

1980-ci illərin ikinci yarısından etibarən Marqaret Tetçer hökumətinin həyata keçirdiyi kütləvi özəlləşdirmə dəmir yollarını əhatə edə bilmədi. Lakin konservatorların yeni lideri Con Meycer artıq özünün seçki kampaniyasında hakimiyyətə gələcəyi tədqirdə dəmir yollarını özəlləşdirəcəyini bəyan etdi. 1996-2000-ci illər ərzində İngiltərənin dəmir yolları özəlləşdirildi. Nəticələr hər kəsin diqqətini özünə cəlb edə biləcək bir səviyyədə idi”.

**Aygün Asimqızı**



# Kölndə cinsi zorakılıq iddialarına görə ilk şübhəli saxlanılıb

## 500-ə yaxın qadın cinsi xarakterli kütləvi hücumlar barədə məlumat verib

**Almaniyanın Köln şəhərində yeni il ərəfəsində qadınlara qarşı seksual hərəkətlər etməkdə şübhəli bilinərək saxlanılan ilk şəxs 26 yaşlı sığınacaq axtaran əlcəzairli olub. Adı açıqlanmayan kişi, həftəsonu Kerpen şəhərində yerləşən qaçqın sığınacağında saxlanılıb. Bu barədə prokurorluq orqanları məlumat verir. O, qadının telefonunu oğurlamaqda şübhəli bilinərək saxlanılıb.**




Köln polisi cinsi hücumlara görə indi 21 nəfər ətrafında araşdırma aparır. Onlardan səkkizi hazırda məhkəmənin hökmünü gözləyir. Bu barədə dövlət ittihamçısı Ulriç Bremer bildirib. Əksəriyyət oğurluq etməkdə təqsirləndirilir.

Polis Kölndə baş verən cinayət hadisəsindən sonra 883 nəfərin şikayət etdiyini deyir. Müraciət edənlərin 497-nin seksual zorakılığa məruz qalan qadın olduğu bildirilir. Üçü zorlama olmaqla iddia edilən cinayətlərin sayı isə 766 təşkil edir. Şimali afrikalıların sistemli şəkildə yeni il ərəfəsində qadınları hədəf götürməsi Köln orqanları və federal hökuməti miqrasiyaya qarşı daha sərt addımlar atmağa vadar edib. Dekabrda Almaniya gördü ki, Əlcəzair və Mərakeşdən sığınacaq axtaranların sayı artır. Ölkənin Daxili İşlər Nazirliyi bildirib ki, hər iki ölkə üçün ümumi göstərici iyunda 1000 nəfərdən az olduğu halda, dekabrda bu rəqəm təxminən 2300-ə yaxınlaşıb. Buna baxmayaraq, bir çox əlcəzairli və mərakeşlilərin sığınacaq iddiaları rədd edilir.

Yeni il ərəfəsində Kölndə, o cümlədən Almaniyanın bir sıra şəhərlərində baş verən hücumlar kansler Angela Merkelin qaçqınları qəbul etmə siyasətinə qarşı kütləvi etirazlara səbəb olub. Məsələ xanım Merkelin Xristian Demokrat İttifaqı partiyasında da fikir ayrılıqlarına səbəb olub. Partiyanın aparıcı fiqurları - Volker Kauder və Culiya Kloekner - Almaniyada qaçqınların sayının artması haqda xəbərdarlıq edən və hər kəsi miqrasiya qanunvericiliyinə ciddi riayət etməyə çağıran məktubu imzalayan 40 həmkarlarına qarşı çıxış edib.

Bu arada, zorakılıq hadisələri ilə bağlı qaçqın kişilərin ictimai üzgüçülük hovuzuna girişinə qoyulan qadağa götürülüb. Rəsmilərin bəyanatında deyilir ki, qadağanın aradan qaldırılması medianın təzyiqi altında deyil, əksinə, qaçqınlarla qadına necə hörmətlə yanaşmaq lazımdır mövzusunda intensiv müzakirələr aparıldıqdan sonra verilib.

# Demokrat namizədlər nüvə razılaşmasını müsbət qiymətləndirir



ABŞ-da prezidentliyə demokrat namizədlər bazar günü İranla əldə olunan nüvə razılığını və İrandakı ABŞ vətəndaşlarının azadlığa buraxılmasını Tehranla münasibətlərin bərpasında müsbət bir addım kimi qiymətləndiriblər. Bazar günü Cənubi Karolinanın Çarlston şəhərində çıxış edən sabiq dövlət katibi Hillari Klinton İranla razılığı alqışlayıb və bu razılığın əldə olunmasında öz rolunun olduğunu ifadə edib: "Mən prezidentin bu hərəkətinin bir hissəsi olduğuma görə şadam. Mən İrana təzyiq göstərən sanksiyaların tətbiq olunmasında da rol oynamışam. Bu sanksiyalar onları danışıq masasına oturmağa vadar etdi və nəticədə razılıq əldə olundu. Hələ ki onlar razılığın tələblərini qarşılayırlar. Amma məncə, biz yenə də onları diqqətlə izləməliyik".

Vermont senatoru Berni Sanders nüvə razılığının "çox müsbət" olduğunu və iki ölkə arasında münasibətlərin təmkinlə bərpa olunmalı olduğunu deyib: "Düşünürəm ki, biz İranla münasibətlərin yaxşılaşması üçün aqressiv şəkildə hərəkətə keçməliyik, çünki biz anlayırıq ki, İranın bir çox sahədə etdiyi əməllərlə razılaşmırıq". Ən son keçirilən rəy sorğuları Ayovada Klinton və Sandersin eyni dəstəyə sahib olduğunu, Nyu Hempşirdə isə Sandersin 14 faizlə Klintondan öndə getdiyini göstərir.

Bu arada, ABŞ-da prezidentliyə respublikaçı namizəd Ted Kruz nüvə razılığının bir hissəsi olaraq iranlı məhbusların azadlığa buraxılmasını şiddətlə qınayıb. "Biz İrana qarşı sanksiyaları pozduğuna və İrana nüvə silahlarını inkişaf etdirməyə yardım etdiklərinə görə həbs olunan yeddi insanı azadlığa buraxırıq. Bunlar kimi qanunu pozan 10-a yaxın digər insan var ki, biz onların məhkəməyə cəlb olunmayacağına razılaşmışıq". Həm ABŞ, həm də İran prezidentləri beynəlxalq sanksiyaların aradan qaldırılması müqabilində Tehranın nüvə proqramını məhdudlaşdırmağa yönəlmiş nüvə razılığını alqışlayıb. Lakin hər ikisi iki ölkə arasında inamsızlığın olduğunu da ifadə edib.

# Britaniyada müsəlman qadınlara ingilis dili öyrədiləcək

Böyük Britaniyanın baş naziri Devid Kemeron deyib ki, Birləşmiş Krallıqdakı müsəlman qadınlara ingilis dilinin öyrədilməsi və onlara qarşı seqreqasiyanın, habelə onların ekstremizm toruna düşməsinin qarşısının alınması məqsədilə 20 milyon funt sterlinq vəsait ayrılıb. Baş nazirin sözlərinə görə, ekstremizmlə dil dərsləri arasında birbaşa əlaqə olmasa da, dilin öyrənilməsi icmaların daha açıq olmasına şərait yaradır. Lakin bəzi müsəlmanlar onu iki məsələni yanlış olaraq qarışdırmaqda ittiham ediblər.

Kemeron bunu da vurğulayıb ki, ingilis dilinin öyrənilməsi Birləşmiş Krallığa ailə üzvü kimi gəlmək istəyənlərin viza məsələsini asanlaşdıra bilər. Hökumət rəqəmlərinə görə, İngiltərədə yaşayan müsəlman qadınların 22 faizi ingiliscə ya çox az, ya da heç bilmir. Bu faktor onların təcrid olunmalarına imkan yaradır.

Baş nazirin fikrincə, qadınların seqreqasiyası və ya təcrid olunması qadın sünnəti və zorla ərəvermə kimi bədnam praktikaların qol-qanad açmasına, belə qadınların İslam Dövləti kimi tanınan qruplaşmanın toruna düşməsinə şərait yaradır. Baş nazir, həmçinin bildirib ki, şəriət məhkəmələri də daxil, dini qurumların "kişilərin öz arvadları, bacıları və qızları üzərində ziyanlı hegemonluğu" ilə mübarizədə iştirakı



məsələsinə baxıb.

Kemeron deyib ki, dil dərslərində məqsəd "daha inteqrasiyalı" cəmiyyətin qurucuKluğudur. O bildirib ki, müsəlman kişilər qadınların ingilis dilini öyrənməsinə maneə yaratmaqla onları cəmiyyətdən təcrid edirlər. Baş nazirin fikrincə, ingilis dilini yaxşı bilən insanların İD təbliğatına qarşı hazırlığı da yüksək olur. Baş nazir izah edib ki, ingilis dilini bilməyənlər cəmiyyətə inteqrasiya olunmur, nəticədə ekstremist təbliğatın ovuna çevrilirlər. Oktyabrdan tətbiq olunacaq qaydalara görə, Britaniyaya ailə üzvü kimi beşillik viza ilə gələnlər burada 2 il yarım yaşadıqdan sonra ingilis dilini nə dərəcədə əxz etdiklərini göstərməli olan testdən keçəcəklər. "Bəs bu testdən keçməyənlər nə edəcəklər" sualına cavab verərkən baş nazir deyib: "Onların burada qalmaqda davam etməsi üçün heç bir qarantiya verilməyəcək". "Bu, sərt qaydadır. Amma bizim ölkəmizə gələn insanlar da məsuliyyət daşıyırlar axı"- deyə baş nazir bildirib.

BBC-nin siyasi müxbiri Alex Forsiyt məsələyə aydınlıq gətirərək deyib ki, baş nazir testdən keçməyənlərin deportasiya olunacaqlarını demir. Lakin bu adamların vizalarının uzadılması məsələsinə baxılanda dili hansı səviyyədə bilmələri faktoru nəzərə alınacaq.

# Tehran dondurulmuş 55 milyard dollarını geri alacaq



İrana qarşı sanksiyaların aradan qaldırılması nəticəsində, rəsmi Tehran təxminən 55 milyard dollar məbləğində dondurulmuş maliyyə vəsaitlərini geri alacaq. Bunu ABŞ-ın dövlət katibi Con Kerri bəyan edib.

O, bəzi ekspertlərin adıçəkilən məbləğin $100-150 milyarda çatacağını qəti şəkildə təkzib edib: "Bu, uydurma rəqəmlərdir. İran təxminən 55 milyard alacaq" - deyə C.Kerri bildirib. Dövlət katibi, həmçinin vurğulayıb ki, İran maliyyə vəsaitini birdəfəlik deyil, hissə-hissə alacaq.

Səhifə Kamranın təqdima-

# Uşağa "pulumuz yoxdur, kasıbıq" demək olmaz

## Psixoloqlar hesab edirlər ki, valideynlər iqtisadi çətinliklərini uşaqlardan uzaq tutmalıdırlar

**"Ölkə iqtisadi böhran qarşısında", "Kasıblıq qaçılmazdır", "Banklar çökəcək", "Qiymətlər qalxdı" və s. kimi fikirlər gün ərzində təkcə mediadan və ya sosial şəbəkələrdən yayılmır, həmçinin insanların fikirlərini də məşğul edir. Əlbəttə, dövlət vəziyyətdən çıxış yollarını axtarır. İnsanlar da onları haqlayan çətinliklərlə üz-üzə durmaqla yanaşı mübarizə yolları düşünürlər.**



Yaşananlar isə insanlarda təkcə maddi təsirini buraxmır, həm də onların psixoloji durumuna təsir edir. Belə məqamda böyüyən nəslin - yeniyetmələrin, uşaqların iqtisadi çətinliklərin psixoloji təsirinə məruz qalmaması üçün nə etmək lazımdır? Onların hələ bərkiməyən, formalaşmayan psixikası bütün zərbələrə qarşı həssas olduğundan təbii ki, psixoloji təsir bu kəsimdən də yan keçmir.

Mütəxəssislər məsələnin kifayət qədər aktual olduğunu bildirərək, yeniyetmə və uşaqların təsirə məruz qalmaması üçün xüsusən valideynlərin, KİV-in və sosial medianın üzərinə böyük məsuliyyət düşdüyünü bildirirlər. Belə ki, valideynlər öz aqressiyalarını övladlarına hiss etdirməməli, media və qeyri-media mənsubları ajiotaj yaratmamağa çalışmalıdırlar.

### ÖZÜNƏİNAM HİSSİNİ YAŞATMALI

**Sosioloq Əhməd Qəşəmoğlu** hesab edir ki, hər hansı böhranlı vəziyyət yarandıqda ona funksional yanaşma olmalıdır. Belə ki, ilk növbədə insanlarda sabaha inam məsələsini təmin etmək lazımdır. Xüsusən uşaqları bu mövzuda qorxutmaq olmaz: "Çünki uşaqlar gələcəyə ümidsiz şəkildə böyüməməlidirlər. İnamsız böyüyən uşaqların şəxsiyyəti fərqli formalaşır. Onlar cəmiyyətdə öz istiqamətlərini də fərqli müəyyənləşdirirlər". Məsələnin elmi, psixoloji və sosioloji yanaşma tələb etdiyini söyləyən sosioloqun fikrincə, uşaqların yanında daha çox ölkənin inkişafı ilə bağlı söhbətlər aparılmalıdır: "Valideyn hansısa məmura və ya hökumətə qarşı küskün ola bilər. Ancaq bu, ona uşağın içindəki etibarı, inamı qırmağa əsas vermir". Sosioloqun fikrincə, məktəbdə müəllimlər də bu mövzuda şagirdlərlə ehtiyatlı olmalıdırlar. Belə ki, onlar ilk növbədə şagirdlərdə ruh yüksəkliyi yaratmağa çalışmalıdırlar: "Müəllimin şagirdə aşıladığı hisslərdən çox şey asılıdır. Hətta, o uşaqlar evə gedib valideynlərini də inandıra, onlara təsəlli verə bilərlər. Belə məqamda müəllimlərin fəaliyyəti də düzgün istiqamətlənməlidir. Müəllimin özünə də elə təlimat vermək lazımdır ki, o, uşaqları sındırmağın, bədbin etməyin yolverilməz olduğunu başa düşsün. Yəni bu onların həm pedaqoji fəaliyyətlərinə, həm də vətəndaşlıq mövqelərinə ziddir". Ə.Qəşəmoğlunun sözlərinə görə, iqtisadi böhranın hər yaşda uşağa psixoloji təsiri ola bilər: "Elə uşaq var ki, birinci sinifdə oxuyanda hər şeylə maraqlanır. Müxtəlif yaşlarda aktiv uşaqlar olur. Bu baxımdan, uşaq və yeniyetmələr arasında bu cür məqamlara daha çox diqqət yetirmək lazımdır. Çünki şəxsiyyətin formalaşması dövründə onlarla xüsusən ehtiyatlı olmaq lazımdır. Bu yaşda hər bir xəbər onlara təsir edə bilər. Biz istəmirik ki, uşaqlarımız gələcəkdə pessimist olsunlar və ya hər hansı dini cərəyanların təsiri altına düşsünlər. Bu baxımdan, uşağın içində işığın daha güclü olmasına çalışmalıyıq". Öz yeniyetməlik illərindən danışan sosioloq 60-cı illər gəncliyinin çətin bir dövr yaşadığını xatırlayır: "O illər çox çətinliklər mövcud idi. Ancaq hamının daxilində sabaha bir inam vardı. Bizim uşaqlığımız dövründə qıtlıq vardı, yemək məhdud idi, ərzaq talonla satılırdı. Amma hər kəsin içində işıq vardı. Bu, bizim gələcək həyatımızı qurmağımızda böyük rol oynayırdı. Biz ümidimizi itirmirdik. Ətrafımızda bizi ümiddən düşməyə qoymayan insanlar vardı. Yaşanan çətinliklər bizi bərkidir, dünyagörüşümüzü formalaşdırırdı. Evdə valideynlərimiz, məktəbdə müəllimlərimiz bizim şəxsiyyət kimi formalaşmağımıza çalışırdı".

### VALİDEYN VƏ MÜƏLLİMİN MİSSİYASI

**Psixoloq Narınc Rüstəmovanın** fikrincə, iqtisadi durumun dəyişilməsi azyaşlı uşaqlara, xüsusən də 9 yaşına qədər olanlara birbaşa təsir etmir. Belə ki, uşaqlar bu barədə məlumatsızdırlar və valideynləri tərəfindən təmin olunurlar. Ancaq valideynin psixikasındakı emosional gərginlik uşaqlara təsir edə bilər: "Yəni valideyn bəzən təşvişə düşür. "Qiymətlər qalxır"- deyə evə aşırı bazarlıq etməyə çalışır. Məsələn, unun qiymətində dəyişiklik oldu deyə unu kisə ilə alır və ya evə bir aylıq bazarlıq edir. Həmçinin hər hansı bir xərci ödəyən zaman gərginlik yaşananda valideynlərin "artıq pul yoxdur" demələri uşaqların psixikasına təsir göstərir. Uşaqlar pulun dəyərinin dəyişməsinin deyil, daha çox valideynlərinin dəyişməsinin fərqindədirlər. Valideyn öz aqressiyasını nümayiş etdirib tez özündən çıxa, uşaqla kobud davrana bilər. Belə məqamlarda onlar öz gərginliklərini zəiflər üzərində həll etməyə çalışırlar. Ona görə də valideyn təşvişə düşməməli, öz psixikasında düzəliş etməyə çalışmalı, özünü tənzimləməyi bacarmalıdır. Yoxsa bu, ailədə də sabitliyin pozulmasına səbəb olar, ailədaxili münasibətləri gərginləşdirər". Valideynlərə soyuqqanlı olmağı məsləhət görən psixoloq iqtisadi çətinliklərdən yaranan dəyişikliklərin psixoloji təsirinin ümumilikdə insanların səhhətinə də təsirsiz ötüşmədiyini qeyd edir: " Ölüm halları artır, ürəkdamar problemləri çox müşahidə olunur, intihar halları çoxalır, cəmiyyətdə aqressiya müşahidə edilir. Yaxşı olardı ki, ajiotaj yaranmasına çalışılmasın. Burada KİV-in və sosial medianın da üzərinə müəyyən məsuliyyət düşür. "Ehtiyatlar sona çatacaq", "böyük iqtisadi böhran qarşısındayıq" və s. kimi fikirlər insanları gərginləşdirir. Mənfi informasiyalar həddən artıq çox yayılır. İqtisadi biliyi olan-olmayan hər kəs öz təxəyyülünün məhsulunu ortaya qoyur. Yaxşı olardı ki, stabillik qorunsun". Psixoloqun fikrincə, valideynlər qənaəti də öyrənməlidirlər. Belə ki, bədxərclik onların özlərinə də ziyan vurur: "Bədxərclik özü də psixoloji durumdur. Bu cür bədxərc insanlar bəzən uşaqları doyumsuz böyüdürlər. Uşaqlar nə istəyirlərsə onlar üçün alırlar, ancaq pul qıtlığı yarananda gərginlik yaşayırlar. Həmçinin bunu uşaqlara da hiss etdirirlər. Valideynin nə qədər qazanmasından asılı olmayaraq, onlar uşağı da qənaətə öyrətməlidirlər. Yəni uşaq onlarla markete girərkən yeri gəldi-gəlmədi "mənə filan şey al" - deməməlidir. Valideyn özü bu qaydalara riayət etsə, uşaq da həmin dəyişiklikdə heç bir fərq hiss etməyəcək. Uşaq da gözləyir ki, ata-ana evə gələndə mütləq əllərində onlar üçün hansısa bir hədiyyə olsun. Ancaq iqtisadi dəyişiklik təsirini göstərəndə valideyn qənaət etməyə çalışarkən bu, uşağın psixikasına təsir edir. Valideynin "Pulumuz yoxdur, kasıbıq" sözü ilə uşaq hətta itirmə qorxusu yaşayır. Bu baxımdan, valideynin emosional durumundan çox şey asılıdır. Buna görə də valideynlər baş verən dəyişikliklə bağlı qəti addımlarını birdəfəlik atmamalıdırlar. Bu, onların həm özləri, həm də uşağın psixikası üçün müsbət amil ola bilər. Valideyn gərgin olmasa, çətinliklər uşaqlara da ciddi təsir göstərməz. Belə vəziyyətdə təmkinliyi qorumaq ailədəki mühiti tənzimləməyə kömək edər". Psixoloq hesab edir ki, baş verən iqtisadi dəyişiklik müəllimin məktəbdə tənzimləyəcəyi durum deyil. Belə ki, onlar o dərs zamanı iqtisadi çətinliklərlə bağlı məsələləri müzakirə etməməlidir" "Bu, qeyri-etikdir. Əgər hansısa uşaq belə suallarla müraciət edirsə, onlar məktəb psixoloquna yönləndirilməlidir. Müəllim ancaq valideynlə əlaqədə olmalıdır. Müəllimin uşaqla bu mövzuda apardığı hər bir söhbət də uşaqların psixikasına təsir edə bilər. Çünki uşaqlar hadisələri təhrif etməyi xoşlayırlar. Uşağın fantaziyası çox yüksəkdir və hadisələri də ciddi qəbul edir. Ona görə də valideyn də, müəllim də ağzından çıxan hər sözə diqqət yetirməlidir. Müəllim iqtisadçı olmadığından onun hansısa sözü uşaqlara mənfi təsir göstərə bilər. Bu baxımdan, evdə valideyn abı-havanı tənzimləməlidir".

Mütəxəssislər bildirilər ki, zaman-zaman baş verən iqtisadi böhranlar əslində insanları pessimizmə qapılmağa deyil, çətinliklərə hazırlamalıdır. Bunun üçünsə hamılıqla dövlətə dəstək olmaq, çətinliyi birgə dəf etmək lazımdır. Bir şərtlə ki, bu məqama da hamılıqla psixoloji baxımdan hazır olasan

**Təranə Məhərrəmova**



# Dövlətin əmlak bazarına müdaxiləsi necə nəticələnəcək?

## Ekspertlər bunu müsbət qiymətləndirməklə yanaşı, prosedurların sadələşdirilməsini də vacib hesab edirlər

**2014-cü ilin sonlarından başlayaraq daşınmaz əmlak bazarında uzunmüddətli durğunluq müşahidə olunur. Bu proses hələ də davam edir. Üzən məzənnə sisteminə keçid isə prosesi bir qədər də qəlizləşdirdi. 2009-cu ildə neftin qiymətinin düşməsi ilə mənzil bazarında bənzər durğunluq müşahidə olunsa da, son 10 ildə mənzil bazarında vəziyyət bu qədər kəskin hal almayıb. Əmlak məsələləri ilə məşğul olanlar neftin qiymətində müsbət dinamika baş verdikdə, bazarda da müəyyən qədər canlanma olduğunu bildirirlər.**



Prezident İlham Əliyev yanvarın 18-də iqtisadi və sosial məsələlərin həlli ilə bağlı keçirdiyi müşavirədə qeyd edib ki, indiki şəraitdə qeyri-neft sektorunun inkişafı daha da böyük prioritet olmalıdır. O cümlədən, Bakıda və bütün şəhərlərdə tam imkan verilməlidir ki, iş adamları böyük tikinti layihələrini icra etsinlər. Bəzi hallarda bu məsələdə iş adamlarının müxtəlif çətinliklərlə üzləşdiyini vurğulayan dövlət başçısı onlara qarşı irəli sürülən əsassız tələblərin yığışdırılmalı olduğunu bildirib. Müşavirədə dövlət başçısı, həmçinin qeyd edib ki, ipoteka xətti ilə böyük tikinti layihələri icra edilə bilər və bu barədə təxirəsalınmaz tədbirlər görülməlidir.

Bəs ekspertlər bu barədə nə fikirləşir? İpoteka kreditlərinin verilməsinin sürətləndirilməsi, dövlət dəstəyi mənzil bazarına necə təsir göstərə bilər? Ümumiyyətlə bu addımdan sonra bazarda hər hansısa canlanma ola bilərmi?

**"Əmlak Ekspert Mərkəzi"nin direktoru Ramil Osmanlı** "Kaspi"yə açıqlamasında Azərbaycanda bu sahədə çox ciddi problemlərin olduğunu bildirdi: "Bu problemlərin aradan qaldırılması isə təbii ki, hökumətin qəbul etdiyi qərarlardan asılıdır. İndiki mərhələdə investisiya cəlb etmək, yerli və xarici şirkətlərin marağını artırmaq üçün bu sahəyə diqqət artırılmalı, qaydalarda sadələşdirilmələr aparılmalıdır. İpoteka kreditlərində iki istiqamət var. Dövlət büdcəsindən vəsaitlərin ayrılması formasında İpoteka Fondunun vasitəsilə verilən dövlət ipotekası və son dövrlərdə bəzi özəl tikinti şirkətləri tərəfindən verilən ipotekalar. Əksər tikinti şirkətlərini bu prosesə cəlb etmək və vəziyyəti dəyişmək üçün tikinti sahəsində ciddi islahatlar aparılmalıdır. Xüsusən də, inşası başa çatmış yeni binaların qısa müddətdə sənədləşdirilməsinə ehtiyac var. Çünki girov təminatı baxımından sənədlərin qanunvericiliyin tələblərinə uyğunlaşdırılması özəl şirkətlərin ipoteka prosesinə daha sürətlə qoşulmasına və nəticə etibarilə gələcəkdə tikinti sektorunun inkişafına xidmət edə bilər".

Ekspertin fikrincə, daşınmaz əmlak bazarına pul axınının gücləndirilməsi bir tərəfdən mənfi xarakterizə olunsa da, digər tərəfdən burada dinamika yaranır. Bu isə özlüyündə əhalinin mənzil təminatının yaxşılaşdırılması, tikinti tempinin artması, o cümlədən yeni iş yerlərinin yaranması baxımından müsbət hal kimi qarşılana bilər: "Məhz buna görə də istənilən formada bu prosesi sürətləndirməyə ehtiyac var. Nəzərə alsaq ki, daxili resurslar indiki halda mənzil tikintisini inkişaf etdirməyə adekvat deyil, xarici resursların cəlb olunmasına ehtiyac yaranır. Həmçinin sahibkarların daha mütəşəkkil formada prosesə cəlb olunması yolu ilə investisiya qoyuluşlarının artırılması vacibdir. Bu baxımdan, həm tikintiyə verilən icazələrin sadələşdirilməsinə, həm də mövcud tikililərin sənədləşmə prosedurlarının sadələşdirilməsinə ehtiyac böyükdür".

**"Qaya Real Estate" daşınmaz əmlak şirkətinin satış direktoru Akif Əliyev** isə son qərarlarda dövlət üçün risk görür: "Uzunmüddətli ipotekalar və aşağı faizlə verilən kreditlər maliyyə nöqteyi-nəzərindən dövlət üçün bir qədər risklidir. Manatın dollara nisbətən məzənnəsinin ucuzlaşması baxımından bunun böyük risk olmasına baxmayaraq, dövlət öz vətəndaşlarının qayğısına qalaraq belə sosial xarakterli layihələr reallaşdıra bilər. Bu addım isə, təbii ki, öz müsbət təsirlərini göstərəcək. Sosial əmlakın tikilməsi zamanı isə gərək dürüst seçimlər olsun. Burada elə prinsiplər əsas götürülməlidir ki, bu işi görmək qabiliyyətində olan şirkət ədalətli üsulla tenderi qazansın".

Ekspertin sözlərinə görə, fərdi sahibkarlar tərəfindən yaşayış binalarının tikilməsində də xüsusi bir mexanizm tətbiq olunmalıdır: "Bir neçə il bundan öncə Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi ilə əlaqə yaratdıq və orada müəyyən tikinti şirkətlərinin maraqlarını təmin etmək üçün danışıqlar apardıq. Təklif etdik ki, hər bir mənzilə görə qiymətli kağız tərtib olunsun və onların qeydiyyatı aparılsın. Ümumiyyətlə isə, yaşayış binalarının tikintisi zamanı dövlətin müdaxiləsi öz müsbət təsirini kifayət qədər göstərəcək".

**Şəbnəm Mehdizadə**

# Ət və süd məhsulları istehsalçıları ilə görüş keçirilib



**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, İqtisadiyyat Nazirliyində müxtəlif sahələrdə fəaliyyət göstərən müəssisələrin nümayəndələri ilə görüşlər keçirilir, onların təklifləri dinlənilir.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, növbəti belə görüş yanvarın 19-da ət və süd məhsulları istehsalı sahəsində fəaliyyət göstərən 15 istehsalçı müəssisə nümayəndələrinin iştirakı ilə keçirilib. Görüşdə dövlət başçısı tərəfindən kənd təsərrüfatı məhsulları istehsalının inkişafına xüsusi diqqət göstərildiyi vurğulanıb, əhalinin tələbatının yerli istehsal hesabına ödənilməsi istiqamətində mühüm tədbirlər görüldüyü qeyd edilib.

Tədbirdə ət və süd məhsulları istehsalı sahəsinin inkişafı, bu məhsullara olan tələbatın tamamilə yerli istehsal hesabına təmin edilməsi, yeni istehsal və emal müəssisələrinin yaradılması imkanları və istehsalçıları maraqlandıran məsələlər barədə müzakirələr aparılıb.

Müəssisələrin nümayəndələri yerli məhsulların maya dəyərinə təsir edən əsas amillər – yem komponentləri, qablaşdırma və emal prosesində istifadə olunan materialların və istehsal təyinatlı avadanlıqların idxalına güzəştlərin tətbiq edilməsi, ölkədə yem istehsalı üçün əlavə əkinə yararlı torpaq sahələrinin dövriyyəyə cəlb edilməsi, yerli istehsalın dəstəklənməsinin gücləndirilməsi və s. barədə təkliflər səsləndiriblər.

İş adamları keçirilən müzakirələrin sahibkarlığın inkişafında əhəmiyyətli olacağını vurğulayaraq, özəl bölmənin inkişafı üçün yaradılmış əlverişli şəraitə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

## Bakı Beynəlxalq Dəniz Ticarət Limanı azad iqtisadi zona ola bilər



**Bakı Beynəlxalq Dəniz Ticarət Limanı azad iqtisadi zona ola bilər ki, bu da ilk bir neçə il ərzində 1 milyard dolladək xarici investisiya cəlb etməyə imkan verəcək. Trend-in məlumatına görə, bunu jurnalistlərə limanın baş direktoru Taleh Ziyadov deyib.**

T.Ziyadov əlavə edib ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı 2016-cı ildə 5 milyon tondan çox yükaşırma planlaşdırır. Onun sözlərinə görə, hazırda yükaşırma üzrə əsas əməliyyatlar şəhərin mərkəzində yerləşən limanda aparılır: "Dəmir yolu ilə daşınan yüklərin göndərilməsi Ələtdəki terminaldan həyata keçirilir. Bu ilin sonunadək Ələtdə iritonnajlı yük maşınlarını daşıya biləcək yeni Ro-Ro terminalı tikiləcək".

T.Ziyadov qeyd edib ki, 2017-ci ilin sonunadək limanın tikintisinin birinci mərhələsi başa çatacaq.



# Məktəblinin ölümünə səbəb olan qəza

## Hadisəni törədən sürücünün apellyasiya şikayəti təmin olunmayıb

**Şəki Apellyasiya Məhkəməsində hakim İmanverdi Şükürovun sədrliyi ilə məktəblinin ölümü ilə nəticələnən ağır yol qəzası törədən sürücünün məhkəməsi yekunlaşıb. Məhkəmə qarşısında Mingəçevir şəhər sakini Şaiq Əhmədov cavab verib. Şaiq Əhmədov Cinayət Məcəlləsinin 263-1.3-cü (yol hərəkəti qaydalarını sərxoş vəziyyətdə pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə ittiham edilib.**



İttihama görə, Şaiq Əhmədov nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan "VAZ-21099" markalı avtomobillə Mingəçevir şəhərinin A.S.Puşkin küçəsi ilə şəhərin H.Əliyev prospekti istiqamətində idarə edərkən yol hərəkəti qaydasını pozub. Bu zaman o, yolu keçmək istəyən 2005-ci il təvəllüdlü Rəsul Rəsulovu vurub. Rəsul Rəsulov xəstəxanaya yerləşdirilsə də, iki gün sonra Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasında dünyasını dəyişib. Qeyd edək ki, Rəsul Rəsulov 4-cü sinif şagirdi olub.

Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Şaiq Əhmədov 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Onun barəsində olan ev dustaqlığı barədə qəti imkan tədbiri ləğv edilərək barəsində həbs qəti imkan tədbiri seçilib. O, məhkəmə zalından həbs edilib. Hökmdən narazı qalan Şaiq Əhmədov apellyasiya şikayəti verərək cəzasının yüngülləşdirilməsini xahiş edib.

Məhkəmədə çıxış edən Şaiq Əhmədovun vəkili bildirib ki, təyin edilən cəza ağırlığına görə müdafiə etdiyi şəxsin şəxsiyyətinə uyğun deyil: "İş materiallarından da görünür ki, Şaiq Əhmədov özünü cinayətin törədilməsində tam təqsirli bilib. Məhkəmə istintaqı zamanı müdafiə etdiyim şəxsin şəxsiyyətini səciyyələndirən hallar, yəni ilk dəfə ehtiyatsızlıqdan ağır cinayət törətməsi, yaşayış yeri üzrə müsbət xarakterizə olunması, himayəsində azyaşlı uşağının olması, zərərçəkmişin valideyni ilə barışması, mərhumun yas mərasimində iştirak edərək maddi yardım göstərməsi, hərəkətlərindən səmimi peşmançılıq hissi keçirməsi, cəzanı ağırlaşdıran halların olmaması kimi xüsusatlara hüquqi qiymət verilməyib. Nəticədə məhkuma ağır cəza təyin edilib. Bu mənada müdafiə etdiyim şəxsə həbs olmayan cəzanın verilməsi daha məqsədəuyğun olar".

Məhkəmədə çıxış edən dövlət ittihamçısı Rəhim Xudiyev isə Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmünün qanuni və əsaslı olduğunu bildirib. Bütün tərəfləri dinləyən məhkəmə apellyasiya şikayətinin təmin edilməməsi ilə bağlı qərar qəbul edib.

# Film kimi cinayət

## İki nəfərin ölümündə təqsirli bilinən şəxsin şikayəti üzrə məhkəmə prosesi yekunlaşıb

Bakı Apellyasiya Məhkəməsində iki nəfərin ölümündə təqsirli bilinən Aydın Qəhrəmanovun apellyasiya şikayəti üzrə məhkəmə prosesi yekunlaşıb.

APA-nın məlumatına görə, məhkəmə onun şikayətini təmin etməyib. Hökm dəyişdirilmədən saxlanılıb.

İttihama görə, Aydın Qəhrəmanov qeyr-rəsmi nikahda yaşadığı Aidə Yəhyayevanın bacısı Naziləyə məxsus 4 otaqlı mənzili ələ keçirmək istəyib. Bunun üçün o, Aidəni zəhərləyərək öldürmək qərarına gəlib. Aidəyə yuxugətirici adı ilə müxtəlif dərmanlar içirib. Həmin vaxt evdə olan Aidənin bacısı qızı Samirə də həmin dərmanlardan istifadə edib. Hər iki şəxs xəstəxanaya yerləşdirilsə də, onları xilas etmək mümkün olmayıb. Vəziyyətdən istifadə edən A. Qəhrəmanov Naziləyə məxsus 175 min manatlıq mənzili 120 min manata Mərifət Sultanov adlı şəxsə satıb.



Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə A.Qəhrəmanov ömürlük azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan Aydın Qəhrəmanov apellyasiya şikayəti verib. O, barəsində bəraət hökmünün çıxarılmasını istəyib.



# Qardaş qardaşı öldürüb

## Hadisə ailə münaqişəsi zəminində törədilib

Paytaxtda qardaş qardaşının həyatına son qoyub. DİN-in mətbuat xidmətindən "Kaspi"yə verilən məlumata görə, hadisə Sabunçu qəsəbəsində qeydə alınıb. Sabunçu qəsəbəsində yaşayan Faiq Xəlilov evində ailə-məişət münaqişəsi zəminində qardaşı Malikə bıçaqla xəsarət yetirib. Hadisədən sonra Faiq Xəlilov könüllü olaraq 12-ci PB-yə gələrək təslim olub. Xəstəxanaya yerləşdirilən Malik Xəlilovun həyatını isə xilas etmək mümkün olmayıb. Faktla bağlı cinayət işi başlanılıb və istintaq hərəkətləri davam etdirilir.

# Daha bir intihar cəhdi

## Qadın çoxlu dərman həbi qəbul edib

Şəmkir rayonunda intihara cəhd olub. APA-nın qərb bürosunun verdiyi məlumata görə, Seyfəli kənd sakini, 1980-ci il təvəllüdlü Xatirə Abışova ağır zəhərlənmə əlamətləri ilə Şəmkir Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Ona dərhal tibbi yardım göstərilib. Vəziyyətinin orta-ağır olduğu bildirilir. Məlumata görə X.Abışova intihar məqsədi ilə çoxlu sayda dərman həbi qəbul edib.



## KRİM XƏBƏR

Sumqayıtda törədilən ağır qətllə bağlı rəsmi məlumat yayılıb. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən "Kaspi"yə verilən məlumata görə, Sumqayıt şəhərinin H.Z.Tağıyev qəsəbəsində qəsəbə sakini Rəfiqə Ağayevanın küt alətlə qətlə yetirilən meyiti tapılıb. Sumqayıt ŞPİ 2-ci PB əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni əmlak bölgüsü zəminində törədən qardaşı Şahbaz Xəlfəyev tutulub. Saxlanılan 1961-ci il təvəllüdlü Şahbaz Xəlfəyev əvvəllər də məhkumluq həyatı yaşayıb. Şahbaz Xəlfəyevlə yanaşı onun arvadı Şəhla və oğlu, əvvəllər məhkum olunan 1991-ci il təvəllüdlü İslam Xəlfəyev də saxlanılıb.

İstintaq zamanı R.Ağayevanın yanvarın 17-də saat 23 radələrində məişət zəminində aralarında yaranmış mübahisə zamanı qardaşı Şahbaz və qardaşı oğlu İslam Xəlfəyevlər tərəfindən küt alətlə çoxsaylı xəsarətlər yetirilərək qəsdən öldürülməsi müəyyənləşdirilib.

Faktla bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

* * *

Paytaxtda ana və oğlu mənzilində qətlə yetirilib. DİN-in mətbuat xidmətindən "Kaspi"yə verilən məlumata görə, hadisə Nərimanov rayonunda qeydə alınıb. Bakı şəhər sakinləri Janna Məhərrəmovanın və oğlu Aleksandr Məhərrəmovun meyitləri Nərimanov rayonunun H.Məmmədov küçəsindəki mənzillərində tapılıb. Hadisənin kim tərəfindən və hansı məqsədlə törədilməsi hələlik məlum deyil. Faktla bağlı cinayət işi başlanılıb və istintaq hərəkətləri davam etdirilir.

* * *

Hüquq-mühafizə orqanları bir neçə oğurluq faktının üstünü açıb. DİN-in mətbuat xidmətindən "Kaspi"yə verilən məlumata görə, paytaxtda 8 ay öncə oğurluq edən şəxs yaxalanıb. Belə ki, Yasamal RPİ 26-cı PB əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ötən il mayın 20-də Camal Qasımovun evindən 890 manat və qızıl əşyalar oğurlayan Bakı şəhər sakini Canbaxış Səfərov tutulub.

Xəzər RPİ 2-ci PB əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Buzovna qəsəbəsində qəsəbə sakini Zülfü Ağayevə məxsus mağazadan oğurluğa cəhd göstərən şəxs tutulub. Saxlanılan Bakı şəhər sakini Aleksandr Mehdiyevdir.

Xəzər RPİ 2-ci PB əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Rövşən Dostiyevə məxsus "ZİL-131" markalı avtomobildən akkumulyator oğurlayan şəxslər tutulub. Saxlanılanlar Maştağa qəsəbə sakinləri Sahil Mahmudov, İbrahim Miriyev və Murad Manafovdur.

Nəsimi RPİ 19-cu PB əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini Arzu Əsgərovaya məxsus içərisində 58 manat və sənəd olan pul kisəsini oğurlayan paytaxt sakini Mətanət Əmrullayeva saxlanılıb.

Sumqayıt ŞPİ əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini Elnur Vəlixanlıya məxsus mobil telefonu oğurlayan Köhnə Kotec qəsəbə sakini Rəfayel Həsənzadə tutulub. Hər bir faktla bağlı araşdırma aparılır.

* * *

Qəbələdə qaz sızması partlayışa səbəb olub. DİN-in mətbuat xidmətindən "Kaspi"yə verilən məlumata görə, hadisə Qəbələ rayonunun Aydınqışlaq kəndində baş verib. Kənd sakini Yulət Cabbarovun evində təbii qazın sızmasından yanğına keçən ani partlayış olub. Hadisə zamanı Y.Cabbarovun azyaşlı qızı Xədicə tüstüdən boğularaq dünyasını dəyişib. Hadisə nəticəsində evin yanar konstruksiyaları və oradakı əşyalar da yanıb. Faktla bağlı araşdırma aparılır.

* * *

Paytaxtda ilin son günü quldurluq edən şəxs tutulub. DİN-in mətbuat xidmətindən "Kaspi"yə verilən məlumata görə, hadisənin üstü Səbail RPİ 9-cu PB əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində açılıb. Saxlanılan Rüstəm Rəşidovdur. R.Rəşidov ötən il dekabrın 31-də Bakı şəhər sakini Xəyal Kərimlinin mobil telefonunu quldurluq yolu ilə almaqda şübhəli bilinir.

Səhifə Ayxanın təqdimatında

# Qan yaddaşımız şou əhlinin xatirində və repertuarında

## 20 Yanvar hadisələrini xatırlayan müğənnilər hər bir ifaçının vətənpərvərlik ruhunda mahnılar oxumasını vacib hesab edirlər

**Düz 26 il bundan əvvəl yanvarın 19-dan 20-nə keçən gecə rus qoşunları Bakıda qırğın törətdilər. Həmin o məşəqqətli günlər hər birimizin yaddaşına əbədi həkk olunub. O gün Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü idi. 1990-cı ilin 20 yanvar günü uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.**

Bu tarix hər bir Azərbaycan vətəndaşının qan yaddaşıdır. Biz də vətənimizin qanlı Yanvar hadisələrinin şou nümayəndələrinin yaddaşına necə həkk olunduğu ilə maraqlandıq. Vətənpərvər mahnılar ifa etməklə şəhidlərimizin ruhu qarşısında and içən ifaçılarımızın vətən üçün öz yaradıcılıqlarında nələr etdiklərini xəbər aldıq. Danışmaqdan imtina edənlər də oldu, cəsarətli çıxışları ilə oxuduğu vətənpərvər ruhlu mahnılarından bəhs edənlər də.

### MƏNİM QƏDƏR VƏTƏNPƏRVƏR MAHNISI OLAN İKİNCİ BİR İFAÇI YOXDUR

**Xalq artisti Gülyanaq Məmmədova** 20 Yanvar hadisələri zamanı Şəkidə olduğunu bildirdi. 1990-cı ildə ifaçı 10-cu sinif



şagirdi olub: "Həmin gün bacım Gülyaz Bakıda olduğu üçün çox həyəcan keçirirdik. Gülyaz universitetdə oxuyurdu. Paytaxtdan bizə qara xəbərlər gəlirdi. Məktəbdən bizi evə göndərdilər və bildirdilər ki, gedin evinizdə sakit oturun. Biz ailəliklə Gülyazdan narahat idik. Sən demə, həmin gün Gülyaz şəhərdən Şəkiyə gələn avtobusa minib Şəkiyə yola düşübmüş. Həmin vaxtlar mobil telefon yox idi. Baxmayaraq ki Şəki paytaxtdan bir qədər uzaqdır, Şəkidə hər kəs iflic vəziyyətinə düşmüşdü. Şəhidlər bizim xalqımızın vətəndaşları idi. Dünyasını dəyişənlər kimliyindən asılı olmayaraq, xalqımızın övladları idi. İstəməzdik ki, belə bir hadisə yaşayaq. Bakıda baş verənləri eşidəndə dəhşətə gəldik. İllər, əsrlər keçsə də, bu hadisəni unutmaq olmaz. Qanlı Yanvar hadisələri həmişəlik bizim yaddaşımıza həkk olunacaq".

Vətənpərvər ruhlu mahnılara gəlincə isə, ifaçı Xocalı faciəsi, Qanlı Yanvar, 31 Mart hadisələrini özündə əks etdirən bir çox mahnıların onun repertuarında öz əksini tapdığını qeyd etdi: "Bacım Gülyazla vətənimizə həsr olunan mahnılarımız həddən artıqdır. Şəhidlərimizin ruhuna həsr olunmuş mahnılarımızın bütün xərcini özümüz çəkmişik. Vətənpərvər mahnıları sevirəm. Bir çox ifaçılar vətənpərvər ruhda mahnılara pul xərcləmək istəmirlər. Repertuarlarında Gülyazla mənimki qədər vətənpərvər mahnılar olan ikinci bir ifaçı yoxdur. Bəstəkarlar kifayət qədər vətənpərvərlik mövzusunda mahnılar yazırlar. Müğənnilər özləri o mahnıları ifa etmək istəmirlər. Səhnəyə təzə gələn vaxtdan bu günə qədər repertuarımızda 40-dan çox vətənpərvərlik ruhunda yazılmış mahnılar var".

### QANLI YANVAR HADİSƏLƏRİNİ BİRLİK SİMVOLU HESAB EDİRƏM

**Xalq artisti Mənsum İbrahimov** qanlı Yanvar hadisələrinin canlı şahidi olduğunu deyir: "Həmin gün Bakıda idim. Deməki



olar ki, o hadisələrin içində idim. Qanlı Yanvar hadisəsi mənim gözümün qarşısında baş verib. Həmin gün əliyalın xalqımız sovet tanklarının qarşısına çıxdı. İnsanlarımız öz ölümləri ilə qəhrəmanlıq tarixi yazdılar. Həmin an sözün əsl mənasında azadlığın təməli qoyuldu. Neçə-neçə günahsız insanlarımız dünyasını dəyişdi. Qəhrəman oğullarımız şəhid oldu. Onların xatirəsi hər zaman bizim üçün əzizdir. Gələcək nəsillər üçün 20 Yanvar hadisəsi bir örnəkdir. Qanlı Yanvar hadisələri onu göstərdi ki, Azərbaycan xalqının vətəndaşları öz torpaqları uğrunda ölümə hazırdırlar. Mən qanlı Yanvar hadisələrini birlik simvolu hesab edirəm. Çünki 20 Yanvar günü yaşadığımız ərazidən asılı olmayaraq, hamımız azərbaycanlı idik. Bizim şəhidlərimizin qanı qırmızı qərənfillərlə əvəz olundu. Azərbaycan övladlarının gedib şəhidlərin məzarı üstündə and içməsi heç də elə-belə deyil. Bu, bizim şanlı səhifəmizdir".

O ki qaldı vətənpərvərlik ruhunda oxunan mahnılara, xalq artisti hesab edir ki, vətənpərvər ruhda yazılan mahnılar Azərbaycan üçün hər zaman lazımdır: "Təəssüflər olsun ki, bu gün vətənpərvərlik ruhunda yazılan mahnılarımız çox azdır. Bizim torpaqlarımızın 20 faizi işğal altındadır. Bizə maarifləndirici, gənclərimizi ruhlandıra biləcək mahnılar hava-su kimi gərəkdir. Çünki biz əsgər yetişdiririk. Torpağımızı qorumaq üçün bizə əsgər lazımdır. Məhz bu səbəbdən vətənpərvər ruhda ifa olunan mahnılar bizə çox lazımdır. Bunun üçün bizim gözəl şairlərimiz də var, bəstəkarlarımız da".

**Əməkdar artist Ədalət Şükürov** bizimlə söhbətində bildirdi ki, 20 Yanvar hadisələri baş verən zaman o, Sankt-Peterburqda yaşayıb. Xəbərləri eşidəndə çox sarsıldığını bildirdi. Musiqiyə gəlincə isə, o



hesab edir ki, Azərbaycan vətəndaşlığını daşıyan hər bir müğənninin repertuarında Azərbaycan haqqında, onun başına gələnlərlə bağlı mahnılar olmalıdır: "Hər bir dövlət tədbirində vətənpərvər ruhda mahnılar ifa edirəm. Hər bir müğənninin vətənpərvərlik ruhda ən azı iki mahnısı var. Mən də bu vətənin övladı kimi vətənpərvər ruhda mahnılar ifa edirəm".

### ÖLÜMLƏ ÜZ-ÜZƏ İDİM

**Əməkdar artist Baloğlan Əşrəfov** deyir ki, 20 Yanvar hadisələri zamanı böyük təhlükə qarşısında qalıb. Belə ki, iki rus



ifaçının maşınına minərək ona maşını "Salyan kazarması"na sürməyi əmr ediblər: "Həmin vaxt mənim heç nədən xəbərim yox idi. Vətəndaşlarımızın başına gətirilən hadisələrdən sonradan xəbər tutmuşam. 20 Yanvar hadisələri çox böyük faciədir. Mənim maşınıma əlində avtomat iki rus vətəndaşı mindi. Onlardan biri komandir idi. O hərbçidən çox siyasətçiyə oxşayırdı. Digəri isə qəhvəyi saqqallı rus idi. Onun əlində avtomat var idi. Ruslar maşınımı saxlayıb, məndən onları "Salyan kazarması"na aparmağımı istədilər. Mən də razılıq verdim. Dedilər ki, vətəndaşlarınız bilsə ki, biz sənin maşınında gəlmişik, səni öldürərlər. Onlar mənə dedilər ki, səndən soruşsalar, deyərsən ki, səni maşına zorla otuzdurmuşuq. Sözün düzünə qalsa, onlar mənim maşınıma zorla oturmuşdular. Mən bilsəydim ki, bizim xalqımızın başına o qədər oyun gətiriblər, bizi Yaradana and olsun ki, onların əlindəki avtomatla özlərini öldürüb maşından salardım. Çox təəssüflər olsun. Hadisədən bir gün qabaq "Salyan kazarması"nın yanında dostumun evində idim. Oradan gördüm ki, axşam insanlar toplaşıb nəyisə müzakirə edirlər. Həmin gün həyat yoldaşım mənə zəng etdi ki, uşaqlar evdə narahatdır. Onun üçün həmin gün evə gedirdim. Bəlkə mən də şəhərdə olsaydım, şəhərdəki vətəndaşlarımıza qoşulardım".

İfaçı 20 Yanvar hadisələrindən bəhs edən mahnı ifa etmək istəsə də, bu arzusu ürəyində qalıb: "O zaman rəhmətlik bəstəkarımız Elza İbrahimovanın mənim üçün yazdığı gözəl bir mahnı var idi. Həmin zamanlar mənə bu mahnını ifa etmək üçün heç cür şərait yaratmadılar. Mahnını gözəl aranjeman etmişdim. Təəssüflər olsun ki, o mahnını ifa etməyə mənə imkan vermədilər. Bu hadisə 26 il bundan qabaq olub. İndi o mahnını ifa etməyimin mənası yoxdur. Bu artıq gecikmiş bir şeydir. O vaxt televiziyada o mahnını oxumağa mənə şərait yaratmadılar. Mənə ən çox təsir edən 20 Yanvarla bağlı yazılan mahnını oxumamağım oldu. Orda elə şeylər vardı ki, mən mahnının sonunda göz yaşlarımı saxlaya bilməmişdim. İndi kimdir mənə o mahnı üçün işlər görən? Heç əvvəlki effekti də verməz".

### ŞƏHİD QIZININ ETİRAFI

**Gənc ifaçı Leyla Ramazanlı** "Kaspi"yə açıqlamasında qeyd etdi ki, onun repertuarında vətənpərvərlik mövzusunda ki-



fayət qədər mahnı var: "Mənim atam şəhid olub. Şəhid qızı olaraq vətən, torpaq mövzusunda mahnı oxumaq mənim içimdən gəlir. Bəlkə də bu səbəbdəndir ki, vətənpərvər ruhlu mahnılar ifamda daha içdən, maraqlı alınır. Hesab edirəm ki, hər bir gənc ifaçının repertuarında vətəni ilə bağlı mahnı olmalıdır. Çünki bizdən sonra gələn nəsli maarifləndirmək və ruhlandırmaq vacibdir".

20 Yanvar hadisələrində canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyən ifaçı onların ailələrinə səbir dilədi: "Şəhidlərimizin ruhları qarşısında baş əyirəm".

### ŞUŞADA DA HƏR KƏS AĞLAYIRDI

**Gənc ifaçı Xuraman Şuşalı** deyir ki, 20 Yanvar hadisələri zamanı ailəsi ilə birlikdə Şuşada olublar: "Həmin günün axşamı Şuşanın məscidlərinə meyitlər gətirildi.



O zamanlar mən uşaq idim. Xatırlayıram ki, televiziyalar bunu göstərmirdi. Ailəmizdə hər kəs narahat idi. Anam ağlayırdı. Tez-tez Bakıda yaşayan qohumlarımızla əlaqə saxlayırdıq. Hadisə Bakıda baş versə də, Şuşada hər kəs ağlayırdı. Məscidlərdə yaslar qurulmuşdu. Mən o günləri heç vaxt unutmaram. Allah şəhidlərimizə rəhmət etsin. Onlar bizə görə şəhid oldular".

İfaçı qeyd edir ki, onun repertuarında hər zaman Qarabağdan bəhs edən mahnılar olub: "Şuşaya, Azərbaycanıma həsr olunmuş mahnım kifayət qədərdir. Hətta bu yaxınlarda Flora xanımla Şuşadan bəhs edən yeni mahnı yazdıracağıq. Şuşalı qızı olaraq deyə bilərəm ki, vətənpərvər ruhda 5 mahnım var".

**Xəyalə Rəis**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# 20 Yanvar - Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi

## Bu səhifəni öz qanı ilə yazan vətənpərvər Azərbaycan oğullarından biri də Tofiq Babaxan oğlu İsmayılovdur

**20 Yanvar Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Düz 26 il bundan öncə SSRİ rəhbərliyinin Azərbaycanla bağlı apardığı qərəzli siyasət, ölkəmizin ərazi bütövlüyünün pozulması cəhdləri, yerli rəhbərliyin xalqımızın mənafeyinə zidd mövqeyi ilə barışmayan dinc əhali küçələrə çıxaraq mövcud rejimə öz etirazlarını bildirib.**

Lakin SSRİ rəhbərliyi xalqın haqlı etiraz səsini eşitmək, ədalətli qərar qəbul etmək əvəzinə, öz qoşunlarını paytaxt Bakıya yeridib. Xüsusi təyinatlı dəstələr ağır zirehli texnikadan və odlu silahlardan istifadə edərək dinc aksiya iştirakçılarını qətlə yetirməyə, onlara qarşı müxtəlif vəhşiliklər törətməyə başlayıblar. Hadisə baş verən gün Azərbaycan xalqı ağır iflic vəziyyətinə və informasiya blokadasına salınıb, radio, televiziya susdurulub, televiziyanın enerji bloku silahlı hərbçilər tərəfindən partladılıb, mətbuatın nəşrinə qadağa qoyulub. Beləliklə də Bakıda törədilən qətliamdan, rus qoşunlarının dinc-əliyalın insanlara qarşı qəddarlığından bütövlükdə Azərbaycan xalqının, həmçinin dünya ictimaiyyətinin xəbər tutması qeyri-mümkün olub. Görünməmiş qəddarlıqla keçirilən cəza tədbirləri nəticəsində heç bir günahı olmayan 131 nəfər mülki şəxsi küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirilib, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub.

Bu hadisə sovet rejiminin törətdiyi ən qanlı faciələrdən biri və dinc əhaliyə qarşı yönəlmiş vəhşi bir cinayət hadisəsi kimi tarixə düşüb.

Həmin hadisələr zamanı həlak olan mərd, qorxmaz, vətənpərvər Azərbaycan oğullarından biri də Tofiq Babaxan oğlu İsmayılovdur. O, 5 yanvar 1956-cı ildə Yardımlı rayonunda anadan olub. Sonradan ailəsi ilə birlikdə əvvəl Qaradağ rayonunun Müşfiqabad qəsəbəsinə, ardınca isə Nəsimi rayonundakı 4-cü mikrorayon ərazisinə



Tofiq İsmayılovun oğlu Rəşad İsmayılov

köçüblər. Ailədə on uşaqdan üçüncüsü olan T.İsmayılov 1970-ci ildə buradakı 111 saylı orta məktəbin səkkizinci sinfini bitirib. 1971-73-cü illərdə peşə məktəbində təhsil alıb, dərzi sənətinə yiyələnib. Öz sənəti ilə yanaşı, müxtəlif sahələrdə əmək fəaliyyəti ilə məşğul olan T.İsmayılov 1982-ci ildə Qızbəs İsmayılova ilə ailə həyatı qurub. Bu evlilikdən onun 1983-cü ildə qızı Rəna, 1985-ci ildə oğlu Rəşad dünyaya gəlib. Təbiətən sakit, ciddi, işgüzar, dürüst insan kimi tanınan, ailəsinə və Vətəninə sonsuz hisslərlə bağlı olan T.İsmayılova qohum-əqrəbası, dost-tanışı da xüsusi hörmət bəsləyiblər. O, hər zaman ədalətsizliyə və haqsızlığa qarşı olduğu üçün 1980-ci illərin sonundan etibarən SSRİ rəhbərliyinin azərbaycanlılara yönəlik siyasətini, erməni iddialarına dəstək verməsini də qəbul etməyib. Elə buna görə də dostları ilə birlikdə etiraz aksiyalarına qoşulub, Vətəninin xalqlar həbsxanasından qurtulması, azadlığa, işıqlı sabahlara qovuşması üçün əlindən gələni, bacarığını əsirgəməyib. 1990-cı ilin yanvarın 19-dan 20-ə keçən gecə də meydanda toplaşan dostlarını tək qoymayıb, sona qədər onların yanında olub. Rus qoşunlarının zirehli texnikadan, odlu silahlardan atəş açaraq dinc aksiyanı dağıtması zamanı qəhrəmancasına həlak olub, şəhidlik zirvəsinə ucalıb.

Şəhidin oğlu Rəşad İsmayılov atası barədə danışarkən onunla bağlı çox az, əsasən də uşaqlıq xatirələrinin olduğunu söylədi. Qeyd etdi ki, uşaq olarkən atasının ona



Tofiq İsmayılov dostları ilə

göstərdiyi nəvaziş, atasının davranışı kino lenti kimi indi də gözləri qarşısında canlanır: "Mən çox balaca idim. Cəmi 5 yaşım var idi. Amma atamla təmasım, ailəmizdə davranışı azacıq da olsa yadımdadır. Ondan mənə qalan bu cür şirin xatirələr və sağlığında qazandığı xətir-hörmətdir. Atamın tay-tuşları, dostları onun barəsində həmişə müsbət fikirdə olublar, elə indi də elədir. Həm onlarla, həm də anamla söhbətlərimdən atamı sanki yenidən kəşf edir, cismən yanımızda olmayan bu insanı daha yaxından tanımağa başlayıram. Təbii ki, onun oğlu kimi barəsində eşitdiklərimdən qürur duyuram. Onun azadlıq fədaisi olması, ölkəsini, xalqını, millətini azad görmək istəməsi, sadə azərbaycanlı kimi bu yolda etdikləri də qürurvericidir. Düzdür, ilk vaxtlar bunu o qədər də anlamaq, başa düşmək olmur. Mənə elə gəlir ki, heç kim valideyn itkisi ilə asanlıqla barışa, onun yoxluğunu qəbul edə, bundan irəli gələn ağrı-acını heçə saya bilməz. Lakin onun əməlinin müqəddəsliyini dərk edəndə, xalqının daha da xoşbəxt yaşaması üçün canından keçdiyini fikirləşəndə bütün ağrı-acılar unudulur. Anam, bacım, yaxın qohumlarım, həmçinin mən də onunla fəxr edir, qürur duyuruq, ruhunu hər zaman hörmətlə anırıq".

R.İsmayılov deyir ki, atasının şəhid olmasından sonra dövlətin dəstəyi onların üzərində olub: "Atam şəhid olandan az bir müddət sonra Nəsimi rayonundakı 4-cü mikrorayon ərazisində bizim ailəyə fərdi mənzil verdilər. İndi həmin evdə anam və həyat yoldaşımla birgə yaşayırıq. Bundan başqa, ümummilli lider Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı fərmanla 1990-cı il 20 Yanvar hadisələri zamanı həlak olanlara, o cümlədən atam Tofiq İsmayılova "20 Yanvar Şəhidi" fəxri adı verilib. Prezident İlham Əliyevin 2006-cı il yanvarın 19-da imzaladığı fərmanla isə 20 Yanvar şəhidinin ailəsi üçün Prezident təqaüdü təsis edilib. Bu fərmandan irəli gələrək, bizim ailəyə də ayda 300 manat məbləğində Prezident təqaüdü verilir".

R.İsmayılov qeyd etdi ki, hər il atasının doğum və vəfatı günündə, eləcə də əlamətdar günlərdə ailə üzvləri ilə birlikdə onun Şəhidlər Xiyabanındakı məzarını ziyarət edir, Azərbaycanın azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olanların hamısının ruhuna dualar oxuyurlar.



Şəhid Tofiq İsmayılov

Məlumat üçün onu da əlavə edək ki, 1990-cı ilin 20 Yanvar hadisələrindən sonra Azərbaycan xalqı birlik-bərabərlik nümayiş etdirib. Ölkəmizin bütün rayonlarında və Bakıda izdihamlı matəm mitinqləri keçirilib, 3 günlük matəm elan olunub. Bakıda keçirilən matəm mərasimində bir milyondan çox insan iştirak edərək şəhidləri ilə vidalaşıb. Bu hadisə Azərbaycan xalqının azadlıq səsi, haqq, ədalət, demokratiya və müstəqillik uğrunda mübarizə əzmi kimi bütün dünyada tanınıb. O zaman SSRİ rəhbərliyi nə qədər çalışsa da, Azərbaycan xalqının iradəsini, mübarizə ruhunu sındıra bilməyib, sovet siyasi sistemi süquta uğramaqda davam edib. Məhz 20 Yanvardan başlayaraq Azərbaycan xalqı SSRİ-nin tərkibində ədaləti bərpa etməyin qeyri-mümkünlüyü və milli haqlarımıza obyektiv yanaşma nümayiş olunacağına öz inamını birdəfəlik itirib. Xalqın bu ağır günlərində ümummilli lider H.Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirib, 20 Yanvar faciəsinə siyasi qiymət verib, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu bəyan edib.

1993-cü ildə ulu öndər H.Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar faciəsinin baş verməsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması məsələsi istiqamətində mühüm addımlar atılıb. 20 Yanvar faciəsinin xalqımızın tarixində yeri və rolu, bu faciənin əbədiləşdirilməsi və bütün dünya ictimaiyyətinə çatdırılması yönündə mühüm işlər görülüb. Ulu öndər H.Əliyevin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı verdiyi fərmanda Milli Məclisə faciəyə tam və əsaslandırılmış siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunub. Milli Məclis 1994-cü il martın 29-da 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında qərar qəbul edib. Bununla da ümummilli lider H.Əliyevin təşəbbüsü və təkidi nəticəsində 20 Yanvar faciəsinə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilib. Ulu öndərin daha bir təşəbbüsü ilə Bakı şəhərinin ən hündür yerində yerləşən Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə möhtəşəm "Əbədi məşəl" abidə-kompleksi ucaldılıb.

Ümummilli lider H.Əliyevin həyata keçirdiyi bu siyasət hazırda ölkə başçısı İ.Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir. Son illərdə 20 Yanvar şəhidlərinin ailələrinə, əlillərə dövlət hesabına fərdi və yaşayış evləri inşa olunub, minik avtomobilləri ilə təmin edilib, birdəfəlik yardımlar verilib. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində tədbirlərin davamı kimi 2010-cu ildə metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə xatirə kompleksi də yaradılıb. Kompleksin üzərində 20 Yanvar faciəsi zamanı həlak olanların adı və soyadı qızılı hərflərlə həkk olunub. Bu günlərdə isə 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərin sosial müdafiəsini gücləndirmək məqsədilə Prezident İ.Əliyev tərəfindən daha bir fərman imzalanıb. Həmin fərmanla 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə verilən Prezident təqaüdünün aylıq məbləği 10 faiz artırılıb.

Son olaraq bildirək ki, bu gün Azərbaycan xalqı və dövləti azadlıq uğrunda canlarını qurban edən şəhidlərimizin, cəsur Vətən övladlarının qəhrəmanlıq mübarizəsini çox böyük hörmət və ehtiramla əziz tutur, onların igidliyini daim yüksək qiymətləndirir.

**Rufik İSMAYILOV**

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*

# Puponun gedişini Qurban Qurbanov istəyir

## “Baş məşqçi mənə şans verməyəcəyini dedi”

**”Mən ”Roda”ya oynamağa və bu komandaya kömək etməyə gəlmişəm”. Apasport.az saytının məlumatına görə, bu sözləri ”Qarabağ”ın sabiq hücumçusu Raydell Pupon deyib.**




”Qarabağ”dan ayrıldıqdan sonra ölkəsinin ”Roda” klubu ilə anlaşan hollandiyalı futbolçu Azərbaycandakı karyerasını xatırlayıb.

Hollandiya mətbuatına açıqlama verən Pupon ”Qarabağ”dan ayrılmasından danışıb. O, Ağdam klubunu baş məşqçi Qurban Qurbanovun istəyi ilə tərk etdiyini bildirib: ”Məşqçi mənə qarşı dürüst davrandı və şans verməyəcəyini dedi. Azərbaycanda komandalar əsas heyətdə 5 legioner oynada bilərlər. Məşqçinin fikrində mən komandanın ən yaxşı 5 legioneri sırasına aid deyildim”.

Yarım il ”Qarabağ”da çıxış etmiş 29 yaşlı futbolçu Azərbaycan çempionatında oynadığına görə, peşman olmadığını qeyd edib: ”Qarabağ”a keçdiyimə görə heç vaxt təəssüflənməmişəm. Zəngin təcrübəyə malikəm və karyeramın sonrakı illərində də bu təcrübədən istifadə edə bilərəm. Hər kluba keçdikcə təcrübən bir qədər də artır”.

”Roda”ya keçidinə də toxunan Pupon bildirib ki, yeni komandasında məqsədi əsas heyətin daimi üzvü olmaqdı: ”Baş məşqçi Dariye Kaleziçlə əvvəldən yaxşı münasibətim olub. O, zəng edib, məni komandasına dəvət edəndə uzun müddət düşünmədim. Kaleziç mənə, mən isə ona kömək edə bilərəm. ”Roda”ya gəldiyim ilk gündən özümə qarşı inam hiss etdim. Bu, hücumçu üçün çox önəmlidir. Məqsədim hər həftə ”Roda”nın heyətində yer almaqdı”.

Qış fasiləsindən sonra ”Roda”nın Hollandiya çempionatında keçirdiyi ilk oyunda (0:1) Pupon ”Alkmar”a qarşı 90 dəqiqə oynayıb.

Qeyd edək ki, Pupon ”Qarabağ”ın heyətində ümumilikdə 23 oyunda iştirak edib və 1 qol vurub.

# “Barselona”nın futbolçusu türk klubunda

## ”Antalyaspor” transferlərə doymur

**Mövsümün əvvəlində kamerunlu məşhur hücumçu Samuel Eto`onu transfer edərək, diqqətləri üzərinə toplayan Türkiyənin ”Antalyaspor” klubu heyətini gücləndirməkdə davam edir. Apasport.az saytının məlumatına görə, ”ağ-qırmızılılar” daha 3 oyunçunun keçidini rəsmiləşdirib.**




Belə ki, antalyalılar ”Beşiktaş”dan Ömər Şişmanoğlunu 1.5 illik icarəyə götürüb. Bundan başqa, komanda ”Mersin İdman Yurdu”ndan Oktay Delibalta və İspaniyanın 3-cü Liqasında çıxış edən ”Barselona”nın 2-ci komandasında (”Barselona II”) oynayan Lionel Enquene ilə də anlaşıb.

Qeyd edək ki, ”Antalyaspor” Superliqanda 18 turdan sonra 12-ci pillədə qərarlaşıb.

# Pato İngiltərə yolunda

**Aleşandre Patonun ”Liverpul”la prinsipial razılığa gəlməsi haqda yayılan xəbərlər doğru deyilmiş. Bu komandanı çalışdıran Yürgen Klopp braziliyalı futbolçunun xidmətində maraqlı olmadıqlarını bildirib.**

Son xəbərlərdə Aleşandrenin ”Çelsi”yə keçidin bir addımlığında olduğu vurğulanır. 26 yaşlı brazili-yalı futbolçu Çindən daha cəlbedici təklif alsa da, premyer-liqada oynamaq niyyətindədir. Onun agenti hazırda Londonda ”zadəganlar”la mümkün keçidlə bağlı danışıq aparır. Ancaq yerli mənbələr Patonun tezliklə göy futbolkada görünmək şansını yüksək dəyərləndirir. Xatırladaq ki, cənubi ameri-kalı Braziliya çempionatının son mövsümündə 33 oyuna 10 qol vurmuşdu.

# “Trabzonspor” N`Doyeni icarəyə verdi

## Süleyman Hurmanın keçmiş klubuna qarşı iddiaları narazılığa səbəb oldu



**”Trabzonspor”da keçirilən prezident seçkisindən sonra istefaya göndərilən idman direktoru Süley-man Hurma Türkiyə kanallarından birinə gündəmə düşəcək açıqlamalar verib. Trabzonda başına gələnlərdən danış-maq istəməyən tanınmış futbol adamı bunları deyib: ”Sizə bu klubda yaşadıqlarımı danışsam, psixoloji cəhətdən problemlərimin olduğunu düşünərsiniz.** Mövsümün əvvəlində oynadı-ğımız futbolla çempionluğa əsas namizədlərdən idik. Ancaq sonradan klubun daxilində və şəhərdə əcaib şeylər baş verməyə başladı. Özü də elə hadisələr idi ki, bir-iki nəfər onların öhdəsindən gəl-məyə qadir deyildi. Ərsun Yanalın ”Trabzonspor”a keçməyimdə böyük əməyi olmuşdu. Yanalın is-tədiyi oyunçuları rəhbərliyə deyəndə məlum oldu ki, həmin futbolçuları almaq mümkün olmayacaq. Beləde Ərsun hoca uğur qazana bilməyəcəyini görərək istefa verdi. Yanalın hazırladığı raportda nə yazılmışdısa, hamısı doğru çıxdı. O, həmin raportda komandanın səviyyəsinin və oyunçuların insani keyfiyyətlərinin yüksək səviyyədə olmadığını qeyd etmişdi. Çempionluq mübarizəsinə gəlincə, fa-voritim ”Beşiktaş”dır. Onların oyununu izləyərkən həqiqətən həzz alıram. Qapıçı axtarmalarına ehti-yac yoxdur. ”Beşiktaş” hətta ortabab qapıçıyla da çempion olmağa qadirdir. Bildiyimə görə, Oğuz-han Özyakupa ciddi təkliflər var. Mən olsam, Oğuzhanı hətta 5 milyon avroya da sataram. ”Arsenal” 9 milyon funt sterlinq verirsə, düşünmədən satsınlar”.

Yeri gəlmişkən, Süleyman Hurma klubun ona 100 min avro borcunun olduğunu iddia edərək məh-kəməyə şikayət edib. Hurmanın bu hərəkəti yönəticilərin heç xoşuna gəlməyib. Onların fikrincə, klubun maddi durumuna gözəl bələd olan Hurma ”Trabzonspor”a xəyanət edib. Sonda ”bordo-mavililər”in Dame N`Doyeylə yollarını ayırdığını bildirək. Mövsümün əvvəlində 3 milyon avroya transfer olunan seneqallı forvard qətiyyən ümidləri doğrulda bilməmiş və 14 rəsmi oyuna cəmi 1 qol vurmuşdu. N`Doye 1,4 milyon avro qarşılığında ”Sanderlend”ə icarəyə verilib.

# “Bu cür halla ilk dəfə üzləşirəm”

## Anyete rəsmi oyunlara qədər ”Neftçi”də hər şeyin qaydasına düşəcəyinə inanır

**”Neftçi”nin ispan hücumçusu Anyete Mövsümün ikinci yarısına Bakıda hazırlaşan klubların iştirakı ilə keçirilən turnir çərçivəsində MOİK-lə oyundan sonra apasport.az saytının əməkdaşının suallarını cavablandırıb**




**- Son saniyələrdə vurduğunuz qol sayəsində əzmkar qələbə qazandınız. Oyunu ”Neftçi” üçün bu qədər çətinləşdirən səbəblər hansılardı?**

- Oyuna uğursuz start verdik. Bunun nəticəsində də qapımızdan qol buraxdıq. Amma sonra toparlana bildik və fasilə ərəfəsində hesabı bərabərləşdirdik. İkinci hissədə üstünlüyü tamamilə ələ aldıq. Üstünlüyümüzü hesabda matçın başa çatmasına saniyələr qalmış realizə edə bildik. Halbuki, ona qədər də çoxsaylı şanslarımız olmuşdu. Elə birinci hissədə də kifayət qədər şanslarımız var idi.

**- Qələbə qazansanız da problemlər kifayət qədərdir. İddialı bir komandanın üzvlərinin bu qədər səhvə yol verməsi nəyin nəticəsidir?**

- Səhvlərin olduğunu etiraf edirəm. İndi hazırlıq dövrüdür. Fasilədən maksimum istifadə edib, bu səhvləri aradan qaldırmalıyıq. Hər gün məşqlər zamanı aşkarlanan səhvləri düzəltmək üçün çalışırıq. Yəqin ki, rəsmi oyunlara qədər hər şey qaydasına düşəcək.

**- Turnir iştirakçıları ilə Premyer Liqa klublarının səviyyəsi müqayisə olunmazdı. Bu gün aşağı dəstə təmsilçiləri ilə oyunlarda əziyyət çəkən ”Neftçi” Premyer Liqada nəyə ümid edir?**

- İndi gündə iki dəfə məşq edirik, yoxlama oyunları keçiririk. Çalışırıq ki, rəsmi oyunlara qədər tam hazır olaq. Təbii ki, çempionat oyunları zamanı ən yaxşısını etmək üçün əlimizdən gələni edəcəyik. Bunun üçün də yaxşı hazırlaşmalıyıq.

**- Uzun fasilədən sonra qol vurdunuz. Bu, sizin üçün yeni mərhələnin başlanğıcı ola bilərmi?**

- Zədə səbəbindən uzun müddət oyunlarda iştirak etmədim. Karyeramda bu cür halla ilk dəfə üzləşirəm. Vurduğum qol stimul ola bilər. Gələcəkdə yəqin ki, sözümü deyə biləcəm.

**- Adətən legioner futbolçu yerlidən 2 qat güclü olmalıdır. Amma bu gün sizin timsalınızda bunu görə bilmirik. Bu situasiya sizin narahat etmir?**

- Əlbəttə, narahat edir. Müalicəm davam edir. Bir müddətdən sonra tam hazır olacam və bura əbəs yerə gəlmədiyimi göstərəcəm. Hər bir futbolçu formasını geyindiyi kluba faydalı olmalıdır. Biz də bunun üçün çalışırıq.

# ”Xəzər Lənkəran” baxışda olanlarla bağlı qərarını verdi



**”Xəzər Lənkəran” baxışda olan futbolçularla bağlı qərarını verib. Apasport.az saytının məlumatına görə, ”ağ-yaşıllar” heyətini gücləndirmək üçün həmin oyunçuların çoxunu komandada saxlamağı məqsədəuyğun bilib. Bu barədə məlumatı cənub təmsilçisinin baş məşqçisi Elbrus Məmmədov verib:** ”Hazırda bir neçə futbolçunu sınayırıq. Onlar arasında Nodar Məmmədov, Mirzağa Hüseynpur, Orxan Səfiyaroğlu kimi Premyer Liqa təcrübəsi olan oyunçular da var. Adıçəkilən futbolçularla çox güman ki, müqavilə imzalayacağıq. Həmçinin baxışda olan daha iki hücumçunu da komandada saxlamağı düşünürük”.

Baş məşqçi bununla da kifayətlənmək fikrində olmadıqlarını deyib: ”Gənclər yığmamızın bir neçə oyunçusunu da heyətə cəlb etməyi düşünürük. Onlarla danışığımız olub. Antalya toplanışından qayıtmalarını gözləyirik. Ayın sonlarında konkret bilinəcək. Həmçinin Rasim Ramaldanov və Tural Cəlilovdan da cavab gözləyirik. Razılıq versələr, onlar da komandaya qayıdacaqlar”.

Səhifə Nəsiminin təqdimatında

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# Universal estetik meyar və prinsiplər

## Onlar tənqiddə zaman-zaman cilalanır

**Mədəniyyətlər, ədəbiyyatlar və onların əsas ideya daşıyıcıları olan klassik bədii əsərlər həm də insan şüurunun intensiv planetləşməsi prosesində müasir estetik-intellektual düşüncənin impulsu kimi daha çox bir-biri ilə müqayisədə yeni dəyər statusu qazanır. İndi humanitar elmlərdə komparativistikanın araşdırma metodlarında özəl yer alması, xüsusilə onun həmin elmləri bir-birinə bağlamaqla işləyən sinkretik formalardan istifadə etməsi də bu zərurətdən doğur. Azərbaycan tənqidi və ədəbiyyatşünaslığında da komparativist araşdırma texnologiyalarının hərəkətə gəlməsi gərəksənir.**

Qorxmaz Quliyevin "Gülən faciə və ağlayan komediya: Şekspir və Məmmədquluzadə" əsəri bu istiqamətdə aparılmış ilk araşdırmalardandır. Əsər, problemin dərindən mənimsənilərək və bir münasib fokusa gətirilərək çözülməsinin, detallarına qədər vararaq çevrə-çevrə daralıb-genişlənmələrlə incələmənin, faktlı ümumiləşdirmənin dəyərli nümunəsidir. Qorxmaz Quliyev fərqli zaman, ədəbi metod və dünyagörüşlərinə mənsub sənətkarların - Şekspir və Məmmədquluzadənin yaradıcılığını tutuşdurur.

Burada Uilyam Şekspir və Cəlil Məmmədquluzadə örnəyində iki ədəbi zaman onların tektonik cazibəsi və itələməsi ilə yanaşı gətirilir: İntibah və Realizm estetikası, onların dünyagörüşü və dünyayozumu müqayisə edilir; obrazların xarakterindən onların yaşadığı zamanın mahiyyətini dərk etməyə körpü salınır. Geniş təfərrüatlı, fəqət xırdalıqlarda azıb itməyən məntiq Sənə Zamanı, onun insanlarının qəlbini oxudur, konfliktlərinə yönəldir, bu konfliktlərdən kələflənən münasibətlərin stixiyasına salır; o insanların təşəkkül və təkamülünün tarixi və ədəbi zamanda necə baş verməsinin səmtlərini arayır; tarixi zamanın ədəbi zamanda necə yaşamasını anladır.

Qorxmaz Quliyevin araşdırmasında başlıca motiv daim hərəkətdə olan fikrin obrazların "bədii Həyatından" hər zaman üçün əhəmiyyət daşıyan Mənaları dərə-dərə irəliləmək və o Mənaların ümumi panoram-orqanikasını yaratmaqdan ibarətdir: "Artıq şəxsiyyətin formalaşması prosesində fərdin dünyaya münasibətində labüd şəkildə bir ambivalentlik əmələ gəlir. "Kral Lir" faciəsinin ilk səhnələrində bu xüsusiyyət özünü ilk növbədə Təlxək obrazında büruzə verir. Çox qəribə olsa da, hamının ələ saldığı Təlxək Kral Lirin özündən əvvəl şəxsiyyət kimi formalaşmışdır. Lakin onun şəxsiyyəti paradoksal prinsiplər əsasında təşəkkül tapmışdır: hüquqi cəhətdən o, sosial iyerarxiyanın ən aşağı pilləsində durur. Yəni tam asılıdır, lakin düşüncələri, hadisələrin gedişinə münasibəti baxımından heç kimə, o cümlədən ağası Lirə də tabe deyil, yəni tam müstəqildir. Buna görə də Təlxək bir tərəfdən hadisələrin gedişi ilə bağlı keçirdiyi hissləri heç kimlə bölüşmür, digər tərəfdən hadisələrə son dərəcə kəskin, çox vaxt sarkazma keçən istehzalı münasibət bildirir. Bu isə o deməkdir ki, birincisi, Təlxəyin şəxsiyyət qismində taxdığı maska ambivalent xarakter daşıyır, ikincisi, fikir azadlığına, deyim azadlığına malik olan şəxs bütün digər hüquqlardan məhrum olsa da, şəxsiyyət kimi formalaşmaq imkanına malikdir."

Geniş təfərrüatlı bu maraqlı mətn belə bir ümumiləşdirmə ilə tamamlanır: "Məmmədquluzadə dram sənətində gerçəkliyin bədii təcəssümünün əsas vasitəsi olan dialoqu ədəbiyyatlararası müstəviyə çıxarmaqla ingilis dramaturqunu Azərbaycana gətirmişdir; Şekspirlə münasibətdə Məmmədquluzadənin yaradıcılığı başdan-ayağa dialoji, postmodernistlərin təbirincə desək, "intertekstual" səciyyə daşıyır: məsələn, İsgəndər məşhur Hamlet istehzasının əsasında dayanan pessimizmin maksimuma, Molla Abbas Kral Lir özgələşməsinin son həddə çatdırılmasıdır. Mahiyyət etibarilə Məmmədquluzadə yaradıcılığı ilk baxışda tamamilə bir-birindən təcrid olunmuş XVII əsr Şekspir teatrı ilə XX əsr absurd teatrı arasında körpüdür".

Əlbəttə, absurd teatrallığı Məmmədquluzadə yaradıcılığının yalnız müəyyən bir tikəsində bəlirlənsə də, bu müqayisələrin dərin qatlarında hər iki sənət dünyası bir-birini daha yaxşı tanıdır. Onların əsərlərinə - dünya tragikomediyasının Şekspir və Məmmədquluzadə tərəfindən yazılmış səhifələri kimi baxırıq. Müqayisə ona görə aparılmır ki, hansı məqamlardasa mütləq oxşarlıqları tapasan, ona görə aparılır ki, oxşarlıq və fərqliliklərdə həyatı və onun sənətdə necə təcəssüm olunduğunu tapasan, görəsən. Əgər Azərbaycan filoloji təfəkkürü dünya mədəniyyətinə, ayrı-ayrı xalqların ədəbiyyatına güclü təsir göstərmiş Uilyam Şekspirlə milli realist sənətin yaradıcılarından olan Cəlil Məmmədquluzadəni belə geniş panoram-kontestdə müqayisəli təhlil edə bilirsə və təhlilindən də effekt alırsa, bu, heç şübhəsiz, bütövlükdə humanitar elmimizin uğurudur.

Cəmiyyət - ədəbiyyat - tənqid üçbucağında sonuncu öz missiyasını yerinə yetirə bilirmi? Azərbaycan intellektualları arasında klassik və çağdaş mədəniyyət və incəsənətimizə, xüsusilə teatr sənətinə, əski dünyagörüşü ilə bağlantıların müasir estetik düşüncəyə hansı impulslar verməsi sorularına öz orijinal münasibəti və açımları ilə seçilən Aydın Talıbzadə "Tənqid və Mən" məqaləsində tənqidi "mədəniyyət olaylarına zamanın çaparaq reaksiyası" kimi doğruca anladır. Bu fikrin davamı isə belədir: "Yapon mənşəli amerikan sosioloqu Frensis Fukuyama "Tarixin sonu" məqaləsini yazıb tam sakit tərzdə bəyan elədi ki, bütün toplumlar sürətlə liberalizmə doğru getdiklərindən tarix öz qlobal əhəmiyyətini itirir. Sadəcə olaraq, liberal ideya hadisə və mübarizəni tarixin əlindən alır: yəni insanlıq yaşayayaşaya tarix ölür. Mənim də fikrim budur ki, XX əsrlə bahəm tənqid epoxası da ölür. Liberal ideya tənqidi də yaxın buraxmır. Çünki hər hansı tənqid qarşıdurmaları hökmən aktuallaşdırır".

Fikrimizcə, nə cənab F.Fukuyamanın tarixə baxışı, nə də hörmətli A.Talıbzadənin bu baxışı, açımı bəşəri sivilizasiyanın məntiqinə uyğundur. Çünki tarix - təbiətin davamıdır: planet sivilizasiyasının biosfer mərhələsindən noosfer mərhələsinə keçməsinin, sonra da kosmosfer mərhələsinə keçəcəyinin tanrısal proqramıdır. Tarixi meydana qeyri-liberal ideya gətirməmişdi ki, liberal ideya da öldürsün. Əksinə, liberal ideya hər kəsin fikrini söyləmək situasiyası yaradırsa, deməli, tənqidi düşüncəyə daha geniş meydan açılır. Bu paradoksdur ki, "tarix ölür", zaman qalır. Əgər tənqid, Aydın bəyin düzgün qeyd etdiyi kimi, "zamanın estetik-fəlsəfi platformasında hər hansı bir mədəniyyət hadisəsinin öz yeganə və bənzərsiz hücrəsini tapdırırsa", onda deməli, tarixi kodlaşdırır. Tarixi - sivilizasiyanın yalnız antaqonist ziddiyyətlər prosesi kimi yozmaq düzgün deyil. Və əgər liberal epoxa mütləqiyyət tənqidini, ideoloji tənqidi aradan aparırsa, bu çox yaxşı. F.Fukuyamanın "Tarixin sonu" və S.Hantinqtonun "Sivilizasiyaların toqquşması" konsepsiyaları əksqütblü ideyalar toplusu kimi məhz amerikan kritisizminin görsəntili olayıdır. Bir də tənqid - hərfi mənasından çox (tənqid etmək) təhlil etmək, yozum sənətidir. Aydın bəyin sırf tənqidi düşüncəni bəlirlədən mülahizələri - elə onun yaşarılığını, Aydın bəyə də gərək olduğunu və olacağını göstərir...

Son illərin poetik axtarışlarındakı səviyyəsizlik, dayazlıq, sayalıq, bədii sənət meyarlarından aşağılıq təzahürlərinə bir sıra tənqidçilərimizlə yanaşı, İradə Musayeva da ardıcıl tənqidləri ilə münasibət bildirib. İradə xanım çağdaş ədəbi proses və ədəbi tənqidin ona münasibəti haqqında polemik qeydlərində yazır: "Bu gün Azərbaycan poeziyasında öz nöqsanlı ifası ilə dinləyiciləri qıcıqlandıran kar çalğıçılar kimi poetiklikdən uzaq olan bayağı, təqlid şeirləri ilə oxucuları zinhara gətirən, özünü, sözünü duymayan, eşitməyən şairlər - şeirimizin kar çalğıçıları artıqca artır"... Ancaq bununla yanaşı, o, çağdaş poeziya axtarışlarında əsl yaradıcılıq görsəntilərini də diqqətdən qaçırmır. Zahir Əzəmət və İlham Qəhrəmanın qələm təcrübələrində böyük sənətin nəfəsi duyulduğu fərqindədir. İradə Musayevanın "Arşını əyilmiş dünyanın görünməz dalğaları" məqaləsi Sabir Əhmədlinin nəsr yaradıcılığına həsr edilib. İradə xanım burada yazıçının yaradıcılığına ötən onilliklərdəki birtərəfli yanaşmanı açır və rus ədəbi tənqidində Ştokman, Krasikova, Marçenko kimi müəlliflərin Sabir Əhmədli haqqında "doğma tənqidçilərimizdən" fərqli mülahizələrini əks arqument kimi qoyur. O, məqaləsində çağdaş Azərbaycan nəsrinin ən seçkin simalarından olan Sabir Əhmədlinin təqribən yarım əsrlik ədəbi yaradıcılığının əsas estetik qayələrini müəyyən etməyə çalışaraq, onu dərin və obyektiv təhlilin predmeti edir. Yazıçının əsərlərində bəzən açıq publisistikaya keçmə məqamlarını da müəllif inandırıcı tənqid edir. Bu məqalə Sovet dönəmində və yeni çağda ədəbiyyata ideoloji və estetik münasibətin fərqini müşahidə etmək baxımından da dəyərlidir.





Rahid Ulusel
Fəlsəfə elmləri doktoru, professor

Müasir tənqidimizin fəaliyyət formalarının məhdud və işlək olmamasının, bədii-estetik məkanda lazımınca konstruktiv qəbul edilməməsinin səbəblərindən başlıcası onun nəzəri-metodoloji problemlərinin yetərincə əsaslı işlənilməməsi və bədii-estetik şüurun bütün formalarının təzahürünə sistemli yanaşma texnologiyalarının tətbiq edilə bilməməsidir. Ədəbiyyat da daxil olmaqla incəsənətin hər bir sahəsinin öz tənqidi və onlara sistemli yanaşma mümkün olduğu kimi, incəsənətə ümumi baxışı, konseptual münasibəti ifadə edən, belə bir zərurətin daşıyıcısı olan tənqid və onun sistemli yanaşması (şərti terminlə - estetik tənqid) da gərəkdir. Bunun effektliliyinə ən gözəl nümunə-model - XVIII yüzilliyin sonu - XIX yüzilliyin birinci yarısının əsasən alman (xüsusilə Fridrix Şlegel), ümumən Avropa fəlsəfi-estetik tənqididir. Məhz elmi-fəlsəfi dünyagörüşü ilə bədii-estetik dünyaduyumunun (insan mahiyyətini tam ifadə edə bilən rasional və emosional başlanğıcların vəhdəti ki, bu həmişə dünyaya münasibətin nizamını, ölçüsünü, miqyasını saxlayır, ifrata varılmanı minimuma endirir) ideal vəhdət məqamları tapıla bildiyi üçün o dövrün böyük fəlsəfəsi və incəsənəti (Hegel və Bethoven, Höte və Vaqner, Humboldt və Şiller...) və onların harmoniyasını, qaynağını yaradan tükənməz enerjili mədəniyyət ərsəyə gəlmişdi. Etiraz edilər ki, indi həmin zaman deyil. İndiki "fraqmental dünyadan" həmin bütövlüyü "quraşdırmaq" olmaz. Ancaq söhbət burada Klassikanı imitasiyadan deyil, özünüquruluşlamanın prinsiplərindən gedir. Bu - mədəniyyətin və onun inkişafının vazkeçilməz sinergetik qanunudur.

Müasir Azərbaycan humanitariyasını, mədəniyyətini, incəsənətini onların bütövlüyündə, harmoniyasında, əlaqəliliyində dərk edən və onlara belə bir estetik idrak konsepsiyasından baxan Mövqe yoxdur. Belə bir mövqeni çağdaş humanitariyanın, mədəniyyətin, incəsənətin bütün xətlərini özündə birləşdirəcək və onlara birgə münasibətin operativ formalarını quracaq Tənqid təşəkkül etdirə bilər. Məhz belə bir mövqenin yoxluğundandır ki, məsələn, bu gün mətbuata yol tapmış bəsit, hətta zırrama bir nəzm parçasına səhəri gün musiqi bəstələnir, o biri gün o özünə bab bir ifaçının təqdimatında səhnəyə, efirə çıxır, bir həftədən sonra da mətbuat, şou-reklam onu öygüləyir, bir ay müddətincə də həmin istedadsız nəsnə toylardan televiziyaya qədər bütün məkanlara şıdırğı soxularaq mədəniyyəti yağmalayır, "xalqın sənət incisinə" çevrilir. Sonra da bu "inciləri" ürüdən "sənətkarlara" gözün üstdə qaşın var deyən olmur. Bir-iki ildən sonra isə həmin "sənətkarlar" artıq "pxtələsib" sənət müsabiqələrində münsiflər heyətinin başbilənləri cərgəsində yer alır, seçim edir, söz sahibi olur. Beləliklə, mədəniyyət məkanının bütün iyerarxiyalarında professional tənqidi münasibətin olmaması onu bütün səviyyələrində aşındıra-aşındıra bəlli acınacaqlı durumuna gətirib çıxarır. Tənqid-ekspertin Azərbaycan mədəniyyətinin (ədəbiyyatının) varlığına və gəlişməsinə məsuliyyət missiyası var və o, dövlətin müvafiq qurumları ilə birlikdə işləməyin (müəyyənləşdirilmiş konkret funksiya, ciddi maddi və mənəvi maraqla!) fəaliyyət mexanizmləri üzrə hərəkətə gəlməlidir.

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*

# Planetin ən qoca adamı öldü

**Onun 113 yaşı olub. Yasuraro Koyde adlı bu ahıl 1903-cü il martın 13-də Yaponiyada anadan olub. Dünyanın ən yaşlı adamı kimi, o, ötən ilin avqust ayında Ginnesin Rekordlar kitabına düşüb. Hələ o zaman bildirmişdilər ki, Koyde yaşının çox olmağına baxmayaraq, müstəqil hərəkət edir və eynəksiz qəzet oxuyur.**



Yasuraro Koyde ömrünün çox hissəsini Yaponiyanın Naqoya şəhərində keçirib. O, gənclik illərində dərzi kimi çalışıb. Bu ilin əvvəlindən Koyde ürək xəstəliyi ilə əlaqədar xəstəxanaya yerləşdirilib. Qərb KİV-lərinin məlumatına əsasən, ümumiyyətlə, Yaponiyada yaşayan uzun ömürlülərə görə tanınır. Orada istər qadın, istərsə də, kişilərin çoxu uzun ömürlü həyat sürür. Koydedən əvvəl dünyanın ən yaşlı adamı türkiyəli Döndü Uzar adlı bir qadın idi. O, ötən il aprel ayında 112 yaşında dünyasını dəyişib. Həkimlərin sözlərinə görə, qadının ölümünə səbəb ürək ritmlərinin pozulması olub. Mərhum 1894-cü ildə Trabzon vilayətində dünyaya gəlmişdi. Uzar ölümünə qədər heç vaxt xəstəlikdən şikayət etməyib və həmişə səhhətinə diqqət edib. Uzarın 4 övladı, 90 nəvə-nəticəsi olub.

# Biofiziklər buqələmunların rəngini necə dəyişdiyini izah ediblər



Alimlər buqələmunun dərisinin rəngini dəyişməsinin daha bir səbəbini aşkar ediblər. Demə, buqələmunlar dərilərinin rənginin dəyişməsi üçün foton nano kristallarından yararlanırmışlar. Bu isə rəngin dəqiqliklə son dərəcə istənilən həddə çatması imkanı yaradır. Bu hal Madaqaskar panter cinsi olan erkək buqələmunlarının üzərində aparılan eksperimentlər zamanı təsdiq edilib. Belə ki, onlar digər canlılarla ünsiyyət zamanı öz rənglərini tünd göydən tutmuş, parlaq qırmızıya qədər çox qısa bir müddət ərzində dəyişə bilirlər.

İndiyə qədər belə hesab edilirdi ki, bu kərtənkələlərin dərisinin rənginin dəyişməsi xüsusi dərialtı hüceyrələrin - xromatoforların işi ilə bağlıdır ki, bu da 4 rəngli piqmentdən ibarətdir. Bioxromlar (onlar piqmentlərdir) müəyyən edilmiş rəngdən başqa (məsələn, qırmızı), bütün digər rəngləri sonadək "udur". Bununla belə, elm aləmində xromatoforlar haqda olan hipotezlər sözsüz, doğru hesab edilmir. Məhz buna görə, Cenevrə Universitetinin biofiziki Mişel Milinkoviç güman edir ki, buqələmunlar üçün daha vacibi iridofor hüceyrələridir ki, bu hüceyrələr rəngi udmur, dərinin səthindəki həndəsi quruluşu dəyişir. Bu üsulla müəyyən edilmiş rəng dəridə əks etdirilir. Milinkoviç və onun həmkarları buqələmunların dərisini güclü elektron mikroskopun köməyi ilə tədqiq edərək, orada iki təbəqədən ibarət iridofor aşkar ediblər. Yuxarı təbəqə quanin adlı tor şəkilli nanokristallarla örtülü olub. Elə bu torun kristalları arasındakı məsafə də buqələmuna dərisinin rəngini dəyişməyə imkan verir. Erkək buqələmunların gərgin vəziyyətdə olmaları zamanı (məsələn, onların dişilər uğrunda davaları zamanı) bu kristallar arasındakı distansiya genişlənir. Bu intervallar artdıqca, müəyyən edilmiş rəng də (qırmızı) daha sürətlə və daha güclü olaraq artır. Kristallar yaxınlaşmağa başladıqda isə, göy rəng əmələ gəlməyə başlayır. Bu zaman isə buqələmuna ksantofor (sarı piqmentli hüceyrələr) kömək edir. Onlar göy rəngi yaşıla, qırmızını isə sarıya çevirir...

# Alimlər sümükləri bərpa edən dərman yaradıblar



Amerika alimləri sınıqların müalicəsində həkimlərə kömək edəcək nadir nanohissəciklər yaradıblar. Bu nanohissəciklər sümüklərdə bərpa prosesini xeyli sürətləndirir. Bu yenilik bioloqlara çox perspektivli görünür.

Alimlərin ixtira etdiyi nanohissəciklər orqanizmdə hüceyrələrin bölünməsini stimullaşdıran molekulları təyinat yerinə çatdıra bilir. Bu isə o deməkdir ki, zədələr əvvəlkindən daha tez aradan qalxa bilər. Bundan başqa, bu nanohissəciklərdən digər məqsədlər üçün də istifadə etmək nəzərdə tutulur. Məsələn, sümüklərdə aparılan cərrahiyyə əməliyyatında və ya kariyesin müalicəsində onlardan istifadə etmək mümkündür. Belə olan halda, diş plombları tezliklə bəşəriyyətə gərəksiz olacaq, çünki diş özü-özünü bərpa edəcək. Bu üsullar osteoporozdan əziyyət çəkən laboratoriya siçanları üzərində artıq istifadə olunub. Araşdırmanın nəticələri ümidvericidir. Alimlər öz ixtiralarını daha iri heyvanlarda, habelə insanlar üzərində sınaqdan keçirmək niyyətindədirlər.

# İnsanı vegetariana çevirən böcək



"Lone star" adlandırılan böcək növü alimləri təəccübləndirib. Belə ki, bu böcəyin zəhəri canlıların qidalanma vərdişini dəyişir. Onun hücumuna məruz qalan insan vegetariana çevrilir. Buna böcəyin zəhərinin tərkibindəki maddələr səbəb olur.

Vanderbilt Universitetinin professorları bildirir ki, bu, böcəyin özünümüdafiə fəndidir. O, yem olmamaq üçün düşməninin orqanizmində ətə qarşı allergiya yaradır. Alimlər böcəyin zəhəri üstündə araşdırmalarını davam etdirəcəklərini bildiriblər.

# ULDUZ FALI

**QOÇ** - İşdə baş verən hadisələrlə əlaqədar çox ayıq-sayıq olmaq tələb olunur. Rəqiblərlə eyni pillələkəndə, yanaşı gedirsiniz. Maraqlarınızı qorumaq üçün istənilən an müharibəyə hazır olmalısınız. Yeni işgüzar münasibətlərə başlamaq imkanları yaranacaq.

**BUĞA** - Peşə sahəsində ciddi uğurlar qazanmaq mümkündür. Sadəcə çalışmaq lazımdır. Təhsildə də qətiyyətli və zəhmətkeş Buğaları uğurlar gözləyir. İşi intellektual zəhmət tələb etməyənlər çox asan gün yaşayacaqlar.

**ƏKİZLƏR** - Peşə baxımından yaxşı gündür. Tapşırıqların öhdəsindən gəlmək olar. Ağıllı planlaşdırma uğurun təminatıdır. Əlbəttə ki, etibarlı üsulun tapılması da sizin və ətrafdakıların həyatını yüngülləşdirəcək. Əfsuslar olsun ki, itkilər də istisna edilmir.

**XƏRÇƏNG** - Yaxşı çalışın və tezliklə mükafatınızı alacaqsınız. Bu bürcün ən ambisiyalı nümayəndələri vəzifələrinin yüksələcəyinə ümid edirlər. Amma əgər özünüzü karyeraçı kimi təsəvvür etmirsinizsə, belə günün hadisələrindən məmnun qalacaqsınız.

**ŞİR** - Peşə baxımından yaxşı gün deyil. Problem və itkiləriniz çox olacaq. Elə hərəkət etməlisiniz ki, səhvləriniz minimum olsun. Bir çoxları mürəkkəb layihələr üzərində işi dayandıracaqlar. Partnyorlarla mübahisəyə girişməyin.

**QIZ** - Maraqları karyera sahəsinə yönələnlərin bəxti gətirəcək. Mövqeyinizi möhkəmləndirəcək və vəzifəniz yüksələcək. Lakin nəzər alın ki, yeni səlahiyyətlər çox yorucu da ola bilər. Danışıqlar aparmaq, potensial partnyorlarla əməkdaşlıq etmək asan iş deyil.

**TƏRƏZİ** - İşdə uğurlara imza atacaqsınız. Daha fəal Tərəzilər əməklərinin meyvəsini dadacaqlar və iddiaları da artacaq. Potensial işəgötürənlərlə müsahibə da yaxşı keçəcək. Uğurlarınız əmək kollektivinin paxıllıq hisslərini oyadacaq.

**ƏQRƏB** - Peşə sahəsində mövqeyiniz möhkəm deyil. Ona görə də uğur və uğursuzluq sizə qardaş olacaqlar. İşgüzar ətrafınızın necə olmasından çox şey asılıdır. Əgər onların arasında su və hava ünsürünün təmsilçiləri varsa, çox ehtiyatlı olmaq lazım gələcək.

**OXATAN** - Peşə sahəsində yaxşılığa doğru dəyişikliklər istisna edilmir. Uğur özü sizə yaxın gələcək. Sadəcə onu tutmağı bacarmaq lazımdır. Ehtiyatı əldən verməyin, imkanlardan istifadə edin. Yeni partnyorlar axtarmaq, sərfəli şərtlərlə əməkdaşlıq qurmaq üçün münasib gündür.

**OĞLAQ** - Qətiyyətli davranmaqla peşə sferasında mövqeyinizi möhkəmlədə, rəqibləri sıxışdıra bilərsiniz. Nə istədiyinizi dəqiq bilirsiniz və bu da ətrafdakılarla əlaqənin asan qurulmasına yardım edir. Əməkdaşlığa hazır yeni partnyorlar ortaya çıxacaq.

**DOLÇA** - İşdə uğurlar əhəmiyyətli olacaq. Əsas odur ki, qeyri-standart addımlar atmaqdan çəkinməyin. Qoy çoxları bunu nə üçün etdiyinizi anlamasın. Axı siz nə istədiyinizi yaxşı bilirsiniz. Tərəfdaşlarınız var. Sadəcə bir az ləngdirlər.

**BALIQLAR** - Peşə baxımından yaxşı gündür. İstedad və qazandığınız təcrübə sayəsində böyük uğurlara imza atacaqsınız. Məhz indi özünüzü ən yaxşı tərəfdən göstərəcəksiniz. Həmçinin səlahiyyətli himayədarlar, sərmayəçi və sponsorlar tapacaqsınız.

**Səhifə Zeynəbin təqdimatında**

Təsisçi: Sona VƏLİYEVA

Baş redaktor: İlham QULİYEV

Ünvan: Bakı ş. Mətbuat prospekti, 529-cu məhəllə, Beynəlxalq Mətbuat Evi
Telefon: 510-61-92, 432-88-45,
Faks: 510-61-93
E-mail: kaspiqazeti@gmail.com

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Lisenziya №022264, Qeydiyyat №V 64

Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb, səhifələnib. Bazar və bazar ertəsindən başqa hər gün çıxır.

Tiraj: 5000

*Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər*